HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 06 (848) ▪ 15 fevral 2017 www.vergiler.az Qiymәti: 55 qəp.

# Azərbaycan xalqı və dövləti həmişə öz qəhrəmanları ilə fəxr edib

## *Prezident İlham Əliyev Milli Qəhrəman Çingiz Qurbanovun ailə üzvləri ilə görüşüb*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Milli Qəhrəman Çingiz Qurbanovun ailə üzvlərini qəbul edib.

Dövlətimizin başçısı bildirib ki, ötən il dekabrın 29-da əsgər Çingiz Qurbanov doğma torpağını müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur: «Çingiz böyük qəhrəmanlıq, igidlik göstərmişdir. Düşmənlə üz-üzə qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. O, geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə qalmışdı. Son nəfəsinə qədər vuruşmuş, bir neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır. Biz Çingizlə fəxr edirik. Bütün Azərbaycan Çingizlə fəxr edir. Bu, bir daha göstərdi ki, Azərbaycan vətəndaşı, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq. Bu, bir daha göstərdi ki, Azərbaycan dövlətinin güclü əsgərləri var. O, böyük vətənpərvərlik, peşəkarlıq, rəşadət göstərmişdir».

Prezident İlham Əliyev bildirib ki, mənfur düşmən bu dəfə də öz qeyri-insani mahiyyətini bütün dünyaya göstərdi: «Bir aydan çox idi Çingizin nəşini qaytarmaq istəmirdi. Azərbaycan dövləti çox böyük səylər göstərdi. Eyni zamanda, bizim beynəlxalq təşkilatlara müraciətlərimiz də cavabsız qalmadı. Biz birgə səylərlə Çingizin nəşinin Vətənə qaytarılmasına nail olduq. Bakıda təntənəli vida mərasimi keçirildi. Bundan sonra Çingiz doğulduğu Qusar rayonuna aparıldı və orada təntənəli mərasimlə torpağa tapşırıldı. Fürsətdən istifadə edərək Qusar rayonunun bütün sakinlərinə öz hörmətimi bir daha ifadə etmək istəyirəm. Qusarlılar Çingiz kimi qəhrəman övladı Azərbaycana bəxş etmişlər».

Ali Baş Komandan qeyd edib ki, dekabr ayındakı növbəti təxribatın məqsədi aydın idi. Çünki keçən ilin aprel ayında erməni silahlı qüvvələri bizə qarşı silahlı təxribat törətməyə cəhd etmişlər. Ancaq bu təxribat nəticəsində özləri peşman olmuşlar: «Azərbaycan Ordusu onlara elə zərbə vurmuşdur ki, bu günə qədər də özlərinə gələ bilmirlər. Aprel döyüşlərindən sonra nəinki Ermənistan ordusu, Ermənistan dövləti silkələndi, generallar poqonlarını, vəzifələrini itirdilər. Ermənistan cəmiyyətində panika, təşviş hökm sürürdü və bu, bu gün də davam edir. Azərbaycan Ordusu, Azərbaycan dövləti işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etmişdir. İndi o torpaqlarda bərpa işləri aparılır və Azərbaycan vətəndaşları o torpaqlara qayıdacaqlar».

**Aprel döyüşlərindən sonra nəinki Ermənistan ordusu, Ermənistan dövləti silkələndi, generallar poqonlarını, vəzifələrini itirdilər**

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistan aprel döyüşlərindən sonra bu məsələyə beynəlxalq don geyindirilməsi üçün dəridən-qabıqdan çıxsa da, buna nail ola bilmədi: «İşğalçı ölkə çox çalışdı ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, - Ermənistan təşkilatın üzvüdür, - bu məsələ ilə bağlı öz mövqeyini bildirsin. Halbuki bunun üçün heç bir hüquqi əsas yoxdur. Biz öz torpağımızdayıq. Bizim Ermənistan torpağına iddiamız yoxdur. Baxmayaraq, hamımız yaxşı bilirik ki, bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik. Ona görə, aprel döyüşləri və təmas xəttində yaşanan gərginlik və toqquşma bizim daxili işimizdir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı məhz belə tanıyır və bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Apreldən sonra Ermənistan müxtəlif yollarla çalışırdı ki, bu məsələyə digər ölkələri cəlb etsin. Ancaq onların bütün səyləri boşa çıxdı, heç bir nəticə vermədi. Ermənistan-Azərbaycan sərhədində növbəti təxribatın törədilməsi məhz bu məqsədi güdürdü ki, bu dəfə üzv olduğu təşkilatı bu işə cəlb etsin. Bu dəfə də alınmadı. Ona görə ki, Azərbaycan Çingizin simasında bir daha qəhrəmanlıq göstərdi. Ermənistan bir daha gördü ki, hətta bir əsgərimiz onların canlı qüvvəsinə bərpaolunmaz zərbə vura bilər və belə də oldu».

Ali Baş Komandan deyib ki, bütün Azərbaycan Çingizlə fəxr edir: «Mən sizə minnətdaram ki, belə gözəl övlad böyütmüsünüz, Azərbaycana bəxş etmisiniz. Ancaq Çingiz ölməyib, o, bizim ürəyimizdə yaşayır, yaşayacaqdır. O, hərbçi üçün ən yüksək mükafatla təltif olunub, ona Milli Qəhrəman adı verilib. O, bizim qəhrəmanımızdır. Onun adı əbədiləşdiriləcək və o, həmişə bizim ürəyimizdə yaşayacaqdır».

Sonra Prezident İlham Əliyev «Azərbaycanın Milli Qəhrəmanı» qızıl ulduzunu şəhidin atası Salman Qurbanova təqdim edib.

# Vətəndaşların rahatlığını təmin etmək dövlətin əsas məqsədlərindəndir

Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin (QSC) inzibati binasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına məlumat verilib ki, binada işçilərin yüksək səviyyədə çalışmaları üçün hərtərəfli şərait var, otaqlar ən müasir mebel və avadanlıqla təchiz olunub. Burada qatarların hərəkətinin onlayn və GPS izlənmə sistemləri tətbiq edilib. Binanın 280 nəfərlik müasir akt zalında bütün imkanlar yaradılıb. İnzibati otaqların hamısı zəruri avadanlıqla təchiz olunub.

Qeyd olunub ki, binada ən müasir işıqlandırma sistemi qurulub. Dəmir yolunun fasiləsiz iş rejimini nəzərə alaraq, binanın həyətyanı ərazisində iki transformator və generator quraşdırılıb, su anbarları inşa edilib. Bina mərkəzləşdirilmiş havalandırma sistemi ilə təchiz olunub. Burada, eyni zamanda, beynəlxalq standartlara cavab verən yanğın təhlükəsizliyi və mühəndis kommunikasiya sistemləri tam şəkildə yenilənib.

Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (dövlət başçısının 13 fevral 2017-ci il tarixli sərəncamı ilə qurumun adı dəyişdirilərək, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yaradılıb) əsaslı şəkildə yenidən qurulan 1 saylı poçt filialının yeni xidmət mərkəzinin açılış mərasimində də iştirak ediblər.

Bildirilib ki, «Şəbəkə» mərkəzlərində son texnoloji tələblərə uyğun avadanlıq - müasir lazer printerlər, monoblok kompüterlər, özünəxidmət köşkləri, valyuta mübadiləsi və ödəmə terminalları, bankomatlar, bank sistemində tətbiq olunan ən müasir növbə aparatı, tam yenilənmiş abunə qutuları quraşdırılıb, müasir tələblərə cavab verən çeşidləmə otağı yaradılıb. «Şəbəkə» xidmət mərkəzlərində bütün növ telekommunikasiya və poçt, bank və maliyyə xidmətlərinin təşkili də nəzərdə tutulub. Vətəndaşlar telefon çəkilişi, internetə qoşulma, bütün növ rabitə xidmətlərinin ödənişi, mobil cihazların IMEI qeydiyyatı, elektron hökumət xidmətlərindən yararlanmaq, elektron imza, valyuta mübadiləsi



və aviabiletlərin alınması üçün bu mərkəzə müraciət edə bilərlər.

Fevralın 10-da Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Dəmir Yolu Vağzalında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar. Dövlətimizin başçısına bildirilib ki, vağzalın əsas binasının fasadı memarlıq üslubunun saxlanması şərtilə yenidən qurulub, binanın daxilində əsaslı təmir işləri görülüb. Binada sərnişinlər pulsuz Wi-Fi sistemindən də istifadə edəcəklər. Vağzal binasının ikinci mərtəbəsində 2 saylı «ASAN kommunal» mərkəzi fəaliyyət göstərir. Mərkəzdə könüllülər otağı, konfrans zalı, uşaq əyləncə sahəsi yaradılıb.

Dövlətimizin başçısı və xanımı dəmir yolu platformasında müxtəlif istiqamətlərdə hərəkət edən qatarların dayanacaqları və sərnişinlər üçün yaradılan şəraitlə də tanış olublar.

# Azərbaycan-Gürcüstan əlaqələri dinamik inkişaf edir

Prezident İlham Əliyev fevralın 13-də Gürcüstanın xarici işlər naziri Mixeil Canelidzeni qəbul edib. Dövlətimizin başçısı Azərbaycan-Gürcüstan əlaqələrinin çox uğurlu və dinamik inkişaf etdiyini vurğulayıb, ölkələrimiz arasında bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, energetika, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirib. Əməkdaşlığımızın yaxşı nəticələr verdiyini vurğulayan Prezident İlham Əliyev bu nəticələrin daha da möhkəmləndirilməsinin və bundan sonra da ölkələrimizin bir-birinə yaxınlaşması, dinamik inkişafı üçün birgə səylərin artırılmasının vacibliyini qeyd edib. Dövlətimizin başçısı Gürcüstanın xarici işlər nazirinin Azərbaycana bu səfərinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin gündəliyinin müzakirəsi və gələcək birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan yaradacağına əminliyini bildirib.

Bakıya hər dəfə səfər etməsindən məmnunluğunu vurğulayan Gürcüstanın xarici işlər naziri paytaxtımızın böyük sürətlə inkişaf etməsinin dost Gürcüstan üçün çox sevindirici hal olduğunu bildirib. Mixeil Canelidze qeyd edib ki, xalqlarımız nəinki qonşudur, eyni zamanda, bizim dostluğumuz bir nümunədir. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin 25 illiyinin qeyd edildiyini vurğulayan qonaq ötən dövr ərzində əldə olunan nəticələrin əhəmiyyətini diqqətə çatdırıb, münasibətlərimizin daha da inkişaf etdirilməsi üçün yaxşı əsasların olduğunu deyib. Azərbaycan ilə Gürcüstan arasında həllini tapmayan məsələlərin olmadığını bildirən Mixeil Canelidze ölkələrimizin gələcək inkişafına istiqamətlənən birgə layihələrin önəmini də qeyd edib.

Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ticarət, turizm və mədəniyyət sahələrində əlaqələrin daha da genişləndirilməsi, Cənub Qaz Dəhlizinin icrası, hökumətlərarası komissiyanın fəaliyyətinin gücləndirilməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Qarşılıqlı münasibətlər məmnunluq doğurur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Latviya Respublikasının xarici işlər naziri Edqars Rinkeviçsin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin yaxşı tarixə və möhkəm əlaqələrə malik olduğunu vurğulayıb. Prezident İlham Əliyev dünyada və regionda vəziyyətin dəyişdiyi bir şəraitdə qarşılıqlı fikir mübadiləsinin önəmini qeyd edib. Dövlətimizin başçısı mütəmadi olaraq məsləhətləşmələrin, fikir mübadiləsinin aparılmasının və ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərdə möhkəmləndirilməsinin əhəmiyyətini bildirib. Azərbaycan ilə Latviya arasında siyasi sahədə əlaqələrin yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev iqtisadi sahədə isə qarşıda mühüm vəzifələrin dayandığını vurğulayaraq, ticarət dövriyyəsinin, gələcəkdə investisiyaların artırılmasının və biznes strukturlarını cəlb etməklə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Dövlətimizin başçısı Latviyanın xarici işlər naziri Edqars Rinkeviçsin ölkəmizə səfəri zamanı bu və digər məsələlərin müzakirə ediləcəyinə ümidvar olduğunu deyib.

Xarici işlər naziri Edqars Rinkeviçs Latviya Respublikasının Prezidenti Raymonds Veyonisin səmimi salamlarını dövlətimizin başçısına çatdırıb. Azərbaycan ilə Latviya arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Edqars Rinkeviçs deyib: «Prezident Raymonds Veyonis yaxın vaxtlarda Azərbaycana səfər edəcəyinə və Sizinlə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələləri müzakirə edəcəyinə ümidvardır». Azərbaycana bundan əvvəlki səfərlərini xatırlayan Latviyanın xarici işlər naziri ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd edib.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRLİYİNİN KOLLEKTİVİ FƏXRİ XİYABANI VƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT EDİB 2

AŞAĞI GƏLİRLİ FİZİKİ ŞƏXSLƏRİN VERGİ VƏ İNZİBATİ YÜKÜ AZALDILIR 3

YENİ ELEKTRON XİDMƏTLƏR İSTİFADƏYƏ VERİLİB 4

VERGİLƏR NAZİRLİYİ SOSİAL ŞƏBƏKƏLƏRDƏ... 5

# Vergilər Nazirliyinin kollektivi Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib



Fevral ayının 11-i Vergilər Nazirliyinin yaradılmasının 17-ci ildönümü və vergi xidməti əməkdaşlarının peşə bayramıdır. Bununla əlaqədar olaraq vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov başda olmaqla, nazirliyin və tabeli qurumların nümayəndələri Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstələri düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad olunub.

Daha sonra Vergilər Nazirliyinin kollektivi Şəhidlər xiyabanını ziyarət edib. «Əbədi Məşəl» abidəsi önünə əklil qoyulub, şəhid məzarlarının üzərinə qərənfil dəstələri düzülüb.

# Ötən ay vergi daxilolmaları üzrə büdcə tapşırıqları tam həcmdə icra olunub

2017-ci ilin yanvar ayı ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 544 milyon 849,2 min manat məbləğində vəsait ödənilib və Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırıqlarına 112% əməl olunub.

# Vergi orqanlarına müraciətlərin sayı azalıb

2017-ci ilin yanvar ayı ərzində vergi orqanlarına 7145 müraciət daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11% azdır. Müraciətlərdən 97,6%-i ərizə, 2,2%-i şikayət, 0,2%-i təklifdir.

Müraciətlərin 45,9%-i müxtəlif arayışların alınması, 20,1%-i kameral vergi yoxlamaları, 12,6%-i vergi borcları, 2,4% vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, 1,4%-i vergi qanunvericiliyinin tətbiqi, 1,3%-i səyyar vergi yoxlamaları, 0,8%-i işlə təmin olunma, 0,5%-i qəbul, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), qalanları isə digər məsələlərlə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 70,4%-i müsbət həll olunub.

Hesabat dövründə vergi orqanlarında ümumilikdə 194 vətəndaş qəbul edilərək, onlara qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib.

# Torpaq vergisinin hesablanması asanlaşıb

Vergilər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahələri olan fizki şəxslərin və müəssisələrin torpaq vergisinin hesablanması üçün zəruri olan torpağın təyinatı, coğrafi baxımdan yerləşdiyi ərazi, keyfiyyəti, torpaq vergisinin dərəcəsi və güzəşt hüququ kimi məlumatlara əsasən, torpaq vergisinin hesablanma mexanizmini özündə əks etdirən hesablayıcı-kalkulyator hazırlanıb.

Xidmətdən istifadə etmək üçün Vergilər Nazirliyinin rəsmi internet səhifəsində hər hansı formada qeydiyyatdan keçməyə ehtiyac yoxdur. İstənilən şəxs proqramı öz şəxsi kompüterinə yükləməklə sərbəst şəkildə istifadə edə bilər.

# Vergi Məcəlləsinə dəyişikliklər iqtisadi inkişafa təkan verir

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər ölkədə biznes sektorunun təmsilçiləri tərəfindən geniş müzakirə olunur. Bank sahəsi üzrə mütəxəssis Faiq Hüseynov KİV-ə açıqlamasında bildirib ki, Vergi Məcəlləsinə dəyişikliklərin böyük bir qismi iqtisadi inkişafa təkan verilməsi baxımından əhəmiyyətlidir, azad biznesin fəaliyyətinin genişlənməsi üçün əlverişli imkan yaradır. Bu dəyişikliklərlə qanunvericilikdə bankların öz aktivlərini artırmasına zəmin yaradan mühüm məqamlar öz əksini tapıb. F.Hüseynov nağdsız ödənişlərin stimullaşdırılmasını, eləcə də nağd ödənişlərin məhdudlaşdırılmasını Məcəlləyə edilmiş mühüm dəyişikliklərdən biri kimi qiymətləndirib. Onun sözlərinə görə, kreditlərin nağdsız formada verilməsi ilk növbədə bank sektorunun canlanmasına müsbət təsir göstərəcək: «Bu, manat kütləsinin həcmini artıracaq, həm depozit, həm də kredit faizlərinin aşağı düşməsinə şərait yaradacaq».

# Yeni qanunvericilik nağdsız hesablaşmaları stimullaşdıracaq

***«Nağdsız hesablaşmalar haqqında» Qanun ölkə ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirmək məqsədi daşıyır.***

Qanunun bəzi müddəalarının şərhi üçün hüquqşünas Xəyal Məmmədxanlıya müraciət etdik. Onun sözlərinə görə, nağdsız ödənişlər dedikdə, bank köçürmələri (o cümlədən ödəniş kartları və ödəniş tapşırığı, mobil telefon aparatları, kompüter və digər avadanlıqlar, Hesab.az, Apus.az kimi portallardan edilən ödəmələr); ödəniş terminalları (MilliÖn, E-manat, Easypay və s.) ilə ödəniş etmə; birbaşa nağd qaydada satıcının bank hesabına köçürmələr nəzərdə tutulur: «Qanuna əsasən, hər iki tərəf vergi ödəyicisidirsə, aralarında hesablaşmalar yalnız bank köçürməsi yolu ilə aparıla bilər. Yəni bu halda, ödəniş terminalları və ya nağd qaydada bank hesabına qoyuluş qadağan edilib.

1 ay ərzində əməliyyatların nağd qaydada bu həcmdə həyata keçirilməsinə icazə verilir:

a) ƏDV ödəyicisi olan şirkətlər - 30.000 manat;

b) illik dövriyyəsi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan (kafe, restoran, marketlər və s.) vergi ödəyiciləri - 30.000 manat;

c) sadələşdirilmiş vergi ödəyiciləri - 15.000 manat.

Bu məbləğlərdən yuxarı olan bütün əməliyyatlar yalnız nağdsız həyata keçirilməlidir».

Müəyyən əməliyyatlar isə həcmindən, müddətindən, formasından asılı olmayaraq, yalnız nağdsız qaydada aparıla bilər. Bura vergilər, gömrük rüsumları, inzibati cərimələr, maliyyə sanksiyaları, lizinq ödənişləri və kreditlər; hər növ sığorta haqları və ödənişləri; dövlət orqanlarına, dövlət şirkətlərinə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən haqlar və yığımlar; ƏDV məqsədləri üçün qeydiyyata alınmış şirkətlər tərəfindən ödənilən əmək haqları, pensiya, maddi yardım, müavinətlər, kompensasiyalar; stasionar telefon və kommunal xərclərin ödənilməsi; faizsiz pul vəsaitlərinin, digər ayırmaların ödənilməsi və qaytarılması; dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin xərclənməsi; təhsil haqlarının ödənilməsi; turizm şirkətlərinə və turagentlərə ödəmələr daxildir.

Bu bənddə göstərilmiş əməliyyatlara limitlər şamil olunmur. Qanunda bir sıra istisna hallar da müəyyən edilmişdir. Həmin hallara görə, kənd təsərrüfatı məhsulları (istehsalçıdan); metal qırıntıları; utilizasiya üçün kağız, şüşə və plastik məmulatları; utilizasiya üçün işlənmiş şinlər fiziki şəxslərdən nağd qaydada alına bilər. Bu isə o deməkdir ki, sahibkar yuxarıda qeyd olunan məhsulların alınması üçün tələb olunan qədər nağd pul ödəyə bilər və bu zaman qanunla müəyyən edilmiş 30 min, yaxud 15 min manat məbləğində limit ona şamil olunmur.

Qeyd edək ki, ƏDV ödəyicisi olan şirkətlər və illik dövriyyəsi 200.000 manatdan artıq olan sadələşdirilmiş vergi ödəyiciləri üçün qanun artıq yanvarın 1-dən qüvvədədir, sadələşdirilmiş vergi ödəyiciləri üçün isə aprelin 1-dən qüvvəyə minəcəkdir. Qanun nağdsız hesablaşmaları stimullaşdıracaq və neqativ halların qarşısını xeyli alacaqdır. 2016-cı il böhranından sonra bank sektorunda canlanma yaradacaq, onların fəaliyyətini artıracaqdır. Xüsusilə də kredit və əmanət böhranı yaşayan banklarda hesablaşma əməliyyatlarının həcminin artmasına səbəb olacaqdır. Ölkədə ödəniş mədəniyyətinin yüksəlməsinə müsbət təsir göstərəcək, insanları yeni texnologiyalardan (internet ödənişlər, bank ödəmələri və s.) istifadəyə yönəldəcəkdir. Bu, həm də ölkədə nağd nominallara olan tələbatı azaltmaqla milli əskinasların ömrünü uzadacaqdır.

Vergi Məcəlləsinin 109.8-ci maddəsinə əsasən, nəzarət-kassa aparatının çeki və ya qəbz malların alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunmur. Bu maddədə konkret olaraq malların alınması ilə bağlı təqdim olunan çek və qəbz göstərilmişdir. Digər xidmətlər üzrə, məsələn, poçt vasitəsilə göndərilən məktublara görə, bank vasitəsilə ödənilən rüsumlara görə və rabitə xidmətləri ilə bağlı ödənişlərə görə bizə təqdim olunan çek və ya qəbzin çəkilən xərcləri təsdiq edən sənəd hesab olunub-olunmaması nə qədər düzgündür?

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin şərhinə əsasən, Vergi Məcəlləsinin 109.8-ci maddəsinin müddəaları yalnız malların alışına münasibətdə tətbiq edilir. Sahibkarlıq fəaliyyəti subyektləri tərəfindən malların alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənədlər Vergi Məcəlləsində nəzərdə tutulan qaydada həmin malları təqdim edən şəxslər tərəfindən alıcılara verilən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası hesab edilir.

Xidmət haqlarının poçt və ya bank, ödəniş terminalları və POS-terminal vasitəsilə ödənilməsi zamanı əldə olunan qəbzlər vergi ödəyicisinin çəkilən xərclərini təsdiq etməklə yanaşı, vergi ödəyiciləri tərəfindən digər vergi ödəyicisinin göstərdiyi xidmətlərə görə ödənilən xidmət haqları yalnız bank hesabından köçürmə yolu ilə nağdsız qaydada həyata keçirilməlidir.

Qanunun 3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği otuz min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

**Fəxriyyə İKRAMQIZI**

**Kənd təsərrüfatı məhsulları (istehsalçıdan); metal qırıntıları; utilizasiya üçün kağız, şüşə və plastik məmulatları; utilizasiya üçün işlənmiş şinlər fiziki şəxslərdən nağd qaydada alına bilər**


**VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!**

"Vergi ödəyicilərinin 2017-ci il 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vergilərin Azərbaycan Respublikasının Vergi Məcəllesi ilə müəyyən edilmiş müddətdə ödənilməməsinə görə hesablanmış faizlər üzrə 2017-ci il 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar, eləcə də vergi orqanları tərəfindən Vergi Məcəlləsinin 58.7 maddəsinə əsasən vergi ödəyicilərinə tətbiq edilən maliyyə sanksiyaları üzrə yaranmış, 2017-ci ilin 1 yanvar tarixinə vergi orqanlarındakı şəxsi hesab vərəqələrində mövcud olan borclar tamamilə silinmişdir.

Fevral ayının 1-dən etibarən vergi ödəyicilərinə tətbiq edilmiş digər maliyyə sanksiyaları üzrə yaranmış vergi borcları isə aşağıdakı şərtlərlə silinə bilər:

- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-fevral ayları ərzində həmin maliyyə sanksiyalarının 50 faizi ödənilərsə, qalan 50 faizi silinir;**
- **vergi ödəyiciləri tərəfindən 2017-ci ilin yanvar-mart ayları ərzində həmin maliyyə sanksiyalarının 70 faizi ödənilərsə, qalan 30 faizi silinir.**

Əlavə məlumat almaq istəyən vergi ödəyiciləri Vergilər Nazirliyinin 195 Çağrı Mərkəzinə, nazirliyin rəsmi internet saytına (www.taxes.gov.az), vergi ödəyicilərinə xidmət mərkəzlərinə, yaxud qeydiyyatda olduqları vergi orqanlarına müraciət edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ




# Aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükü azaldılır

Bu il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər ölkəmizdə daha əlverişli biznez mühitinin yaradılmasına, sahibkarların vergi yükünün azaldılmasına, onların qanuni hüquqlarının qorunmasına və genişləndirilməsinə xidmət edir. Əlavə və dəyişikliklərdən 123-ü vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi sahəsində uçot və qeydiyyatın asanlaşdırılması, 34-ü vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8-i isə vergi yükünün azaldılması, azadolmalar barədədir. Bütün bu dəyişikliklərin məğzində vergi ödəyicilərinin vergi öhdəliklərini qanun çərçivəsində və könüllü şəkildə yerinə yetirməsinin təmin olunması durur. Qanunvericiliyin təkmilləşdirilməsi vergi ödəyicilərinin fəaliyyətinin daha da genişləndirilməsinə, sahibkarların daha çox qazanmalarına və nəticədə dövlət büdcəsinə daha çox vergi ödəmələrinə hesablanıb.

**Bütün bu dəyişikliklərin məğzində vergi ödəyicilərinin vergi öhdəliklərini qanun çərçivəsində və könüllü şəkildə yerinə yetirməsinin təmin olunması durur**

Artıq kiçik sahibkarlıq subyektlərinə münasibətdə yoxlamalara və kütləvi operativ nəzarət tədbirlərinə deyil, münasibətlərin qarşılıqlı partnyorluq müstəvisində qurulmasına üstünlük verilir. Vergi Məcəlləsində konkret peşə adları qeyd olunan kiçik vergi ödəyicilərinin isə bu sahədə işləri tamamilə yüngülləşdirilib. Belə ki, sözügedən vergi ödəyiciləri ümumiyyətlə vergi bəyannamələri təqdim etməyəcək, kiçik və sabit məbləğdə vergi ödəməklə öhdəliklərini yerinə yetirmiş olacaqlar. Belə fəaliyyət növlərinə toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik, fərdi foto, audio-video xidmətləri, çəkməçi, pinəçi, saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və nəqqaşlıq emalatxanalarının fəaliyyəti aid edilmişdir. Dəyişikliklərə əsasən, vergi öhdəliklərini sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz almaqla yerinə yetirən şəxslər vergi orqanına bəyannamə təqdim etmirlər. Bu dəyişikliklər fərdi qaydada fəaliyyət göstərən aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükünün azaldılmasına xidmət edir.

Göründüyü kimi, müasir vergi siyasəti vergi orqanlarının vergi ödəyicilərinə münasibətdə daha şəffaf, dəqiqlik nümayiş etdirməyi tələb edir. Vergi ödəyiciləri arasında qanunvericiliklə bağlı biliklərin gücləndirilməsi, vergi mədəniyyətinin ümumi səviyyəsinin qaldırılması, vergi orqanları və biznes strukturları arasında qarşılıqlı əlaqənin genişləndirilməsi, ödəyicilərin istənilən vaxt istənilən yerdən istənilən məlumatı ala bilmələri imkanlarının yaradılması vergilərin könüllü ödənilməsini stimullaşdırır.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin Vergi siyasəti idarəsinin Vergi qanunvericiliyinin tətbiqi şöbəsinin rəhbəri Əvəz Quliyevin sözlərinə görə, vergi ödəyicilərinin qanunun tələblərinə tam həcmdə əməletmə səviyyəsinin yüksəldilməsi məqsədilə vergi mədəniyyətinin formalaşdırılması və yüksəldilməsi istiqamətində xeyli işlər görülmüşdür. Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin genişləndirilməsi, o cümlədən bəyannamələrin tərtib və təqdim olunması, vergilərin ödənilməsi ilə bağlı prosedurların elektron qaydada həyata keçirilməsi, ödəyicilərin qanunvericiliklə bağlı internet, KİV vasitəsilə daimi olaraq məlumatlandırılması, habelə vergilərlə bağlı metodiki materialların, broşürlərin hazırlanıb vergi ödəyicilərinə çatdırılması, müxtəlif tematik seminarların və görüşlərin keçirilməsi bu istiqamətdə həyata keçirilən tədbirlər sırasındadır.

Hazırda qabaqcıl dünya təcrübəsindən istifadə olunmaqla vergi mədəniyyətinin daha da yüksəldilməsinə yönəldilmiş tədbirlərin görülməsi davam etdirilməkdədir. Vergitutma mexanizminin sadələşdirilməsi, vergi mübahisələrinin həlli mexanizmlərinin təkmilləşdirilməsi, vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq prinsipləri əsasında qurulması, bu istiqamətdə məlumatlandırma və maarifləndirmə işlərinin müasir İKT-nin imkanlarından geniş istifadə olunmaqla təşkil edilməsi daha səmərəli nəticələr əldə etməyə şərait yaradır.

**Rəşad SADIQOV**

# Yeni xidmət növü vergi ödəyicilərinin istifadəsinə verildi

Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 2016-cı il 4 avqust tarixli sərəncamının 2.7-ci bəndinin icrası məqsədilə «Vergi ödəyicilərinin telefon vasitəsi ilə əlaqə yaradılaraq məlumatlandırılması (Outbound Call Centre) Qaydaları» hazırlanmış, Vergilər Nazirliyi kollegiyasının qərarı ilə təsdiq edilmiş və nazirliyin internet saytında yerləşdirilmişdir.

Qaydalar zəng edilərək məlumatlandırılmalı olan vergi ödəyicilərinin müəyyən edilməsini, onlara uçotda olduqları vergi orqanı tərəfindən Vergilər Nazirliyinin Çağrı Mərkəzinə bağlı telefon xətti vasitəsi ilə zənglərin edilməsini, belə zənglərə nəzarət, nəticələrinin təhlili və qiymətləndirilməsi ilə əlaqədar görüləcək işləri tənzimləyir.




Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin məlumatında bildirilir ki, vergi ödəyicisinin zəng edilməklə məlumatlandırılması onun digər xidmət kanalları vasitəsilə məlumatlandırılmasını istisna etmir. Vergi ödəyicisinə zəng onun uçotda olduğu vergi orqanının vergi ödəyicilərinə xidmət strukturlarının əməkdaşları tərəfindən, bu Qaydaların tələblərinə uyğun olaraq, mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin xidmətin təşkili idarəsinin direktoru Azər Şirinov bildirilib ki, departament Tədris Mərkəzi və Çağrı Mərkəzi ilə birlikdə həmin əməkdaşlara vergi ödəyicilərinin telefon vasitəsi ilə əlaqə yaradılaraq məlumatlandırılması prosesində zəruri olan bilik, bacarıq və vərdişlərinin artırılması məqsədilə xüsusi tədris proqramlarının hazırlanmasını və təlimlərin aparılmasını təşkil edir, bu sahədə onlara metodiki-praktiki köməkliyin göstərilməsini təmin edir. Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinə kuratorlar tərəfindən edilən, birbaşa fəaliyyəti ilə əlaqədar koordinasiya strukturları tərəfiindən və şikayətlərə baxılması ilə əlaqədar zənglər istisna olmaqla, xidmət strukturlarının əməkdaşlarından başqa, vergi orqanının digər strukturlarının əməkdaşları tərəfindən vergi ödəyicilərinə zənglərin edilməsi qadağandır. Çağrı Mərkəzində proqram təminatına inteqrasiya olunmuş xüsusi telefondan vergi ödəyicilərinə edilmiş zənglərin proqram təminatı vasitəsi ilə sistemin yaddaşına yazılması, arxivləşdirilməsi və bərpa olunması imkanı yaradılıb.

Qaydalarda zəng edilərək məlumatlandırılmalı olan, vergi qanunvericiliyinə riayət edilməsi istiqamətində məlumatlandırma-izahat tədbirlərinin, o cümlədən qabaqlayıcı tədbirlərin həyata keçirilməsi zəruri hesab olunan vergi ödəyicilərinin müəyyən edilməsi prosesi, eləcə də telefon əlaqəsi zamanı əməkdaşların əməl edəcəyi proses və davranış normaları öz əksini tapmışdır. Vergi ödəyicisinə bir neçə risk qrupu üzrə məlumatın çatdırılması nəzərdə tutulduqda ona bir zəng zamanı bütün məlumatlar təqdim edilir. Müəyyən edilmiş siyahılar üzrə vergi ödəyicilərinə zənglərin edilməsi vergi öhdəliklərinin yerinə yetirilməsi və ya hesabatların təqdim edilməsi müddətlərinin başa çatma dövrləri (sonuncu tarix) nəzərə alınmaqla ardıcıllığa uyğun həyata keçirilir.

Qaydalarda göstərilmişdir ki, Çağrı Mərkəzi tərəfindən zənglərin edilməsinə texniki və metodiki dəstək göstərilir, müxtəlif təhlil parametrləri üzrə zənglərin statistikası aparılır, bu sahədə hər hansı nasazlıq olduqda onun aradan qaldırılması üçün müvafiq tədbirlər görülür.

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycan azad biznesə açıq olduğunu nümayiş etdirir

**2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin mühüm istiqamətlərindən biri vergi inzibatçılığının təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın stimullaşdırılmasıdır.**

Sahibkarlıq mühitinin yaxşılaşdırılması məqsədilə vergi ödəyicilərinə göstərilən xidmətlərin təkmilləşdirilməsi və sahibkarların qeydiyyatı prosesinin daha da sadələşdirilməsi istiqamətində yeni layihələr həyata keçiriləcək. Sahibkarlıq subyektlərinin fəaliyyətə başlaması üçün zəruri prosedurlar asanlaşdırılacaq, VÖEN-in cəmi 1 gün ərzində verilməsi təmin olunacaq. Bu, sahibkarlıq subyektlərinin biznesə başlaması üçün daha əlverişli mühitin təmin olunması deməkdir.

| «Biznesə başlama» indeksi | | | |
|---|---|---|---|
| | Azərbaycan | Avropa və Mərkəzi Asiya | OECD |
| Prosedur | 2.0 | 4.9 | 4.8 |
| Vaxt (gün) | 2.0 | 10.2 | 8.3 |
| Xərclər (adambaşına düşən gəlirin faizi) | 1.3 | 4.7 | 3.1 |
| Ödənilmiş minimum kapiatal (adambaşına düşən gəlirin faizi) | 0.0 | 4.0 | 9.2 |

Azərbaycan Dünya Bankının 190 ölkənin biznes mühitini qiymətləndirən «Doing Business 2017» hesabatında vergiyə aid istiqamətlər üzrə ən yaxşı nəticələr əldə edib. Respublikamız «Biznesə başlama» («Starting business») göstəricisi üzrə əvvəlki illə müqayisədə 2 pillə irəliləyərək ilk beşlikdə yer alıb. Bu, yerli və xarici ekspertlər tərəfindən Vergilər Nazirliyinin həyata keçirdiyi uğurlu islahatlara müsbət münasibətinin nəticəsi hesab olunur.

Vergi mütəxəssisi Radi Fətullayevin rəyinə görə, həyata keçirilmiş tədbirlər nəticəsində biznesə başlama prosedurları əsaslı surətdə sadələşdirilib. 2011-2013-cü illərdə ölkəmizdə «e-qeydiyyat» üzrə aparılan islahatlar prosedurların əhəmiyyətli dərəcədə asanlaşmasına şərait yaradıb: «2011-ci il iyulun 1-dən fərdi sahibkarların «e-qeydiyyat» sistemi işə salınıb ki, bu da sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin vergi orqanına getmədən internet vasitəsilə uçota dayanmasına imkan verir. 2012-ci ilin fevral ayından Azərbaycanda yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin də qeydiyyatı elektron üsulla aparılmaqdadır. 2014-cü il noyabrın 28-dən Vergi Məcəlləsinə olunmuş dəyişikliklərə əsasən, fiziki şəxslərin vergi uçotuna alınması sahəsində növbəti addımlar atılıb, elektron formada dərhal vergi uçotuna alınma imkanı yaradılıb. Kommersiya hüquqi şəxslərin «e-qeydiyyat» sisteminin tətbiqi hüquqi şəxsləri dövlət qeydiyyatı ərəfəsində yerinə yetirilməli olan prosedurdan keçmək zərurətini tamamilə aradan qaldırıb və qeydiyyatın aparılmasına sərf edilən müddəti xeyli azaldıb. Nəticədə hüquqi şəxslərin biznesə başlama prosedurları əhəmiyyətli dərəcədə sadələşdirilib. Məsələn, biznesə başlamaq üçün tələb edilən prosedurların sayı 2, günlərin sayı 2-dir. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələri birləşdirən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatında (OECD) bu göstərici müvafiq olaraq 5 və 9, Mərkəzi Asiya və Mərkəzi Şərqi Avropa ölkələrində isə 5 və 12-dir. Yəni, praktik olaraq, Azərbaycan həm OECD, həm də region üzrə müqayisədə daha yaxşı göstəricilərə malikdir».

Beynəlxalq iqtisadi təhlillərdə biznesə başlama göstəricisi xarici investisiyalar və yeni texnologiyaların axınına stimullaşdırıcı təsir göstərən amil kimi dəyərləndirilir. Bu göstərici Azərbaycanda əlverişli sərmayə mühitinin olmasının təkanverici faktoru hesab olunur. Respublikamızın həmin indeks üzrə 5-ci yerdə qərarlaşması ölkənin azad biznesə açıq olduğunu nümayiş etdirir və bunun xarici investisiyaların cəlb olunması baxımından da böyük əhəmiyyəti var.

Azərbaycanda sahibkarlığın qeydiyyatının asanlaşdırılması və biznesin əlverişliliyi Dünya İqtisadi Forumunun «Qlobal Rəqabət Qabiliyyəti İndeksi 2016-2017» hesabatında da öz əksini tapıb. İqtisadiyyatın rəqabət qabiliyyəti səviyyəsi üzrə dünya ölkələri arasında 37-ci yeri tutan respublikamız makroiqtisadi sabitlik, şirkətlərin rəqabət qabiliyyəti və innovasiya potensialı indekslərinə görə yaxşı göstəricilər əldə edib. Azərbaycanın reytinqdə mövqeyinin yaxşılaşmasında bir sıra amillərin, o cümlədən son bir ildə biznes mühitinin təkmilləşdirilməsi və sahibkarların hüquq və mənafelərinin qorunması ilə bağlı həyata keçirilən tədbirlərin mühüm rolu var. Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, lisenziyaların say və verilmə müddətinin azaldılması, e-lisenziya sisteminin tətbiqi azad biznes fəaliyyətinə əlverişli şərait yaradır. Hazırda respublikamızda biznes mühitinin və rəqabətqabiliyyətliliyin daha da yaxşılaşdırılması məqsədilə tədbirlər davam etdirilir. Vergi inzibatçılığının və qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı yeni islahatlar proqramının həyata keçirilməsi kiçik və orta sahibkarlığın daha da inkişafına və xarici investisiyaların cəlb olunması üçün rəqabətədavamlı vergi rejiminin yaradılmasına geniş imkan verəcək. Vergi sisteminin normativ-hüquqi bazasının yeni şəraitə uyğunlaşdırılmasına yönəldilmiş islahatlar vergi yükünün optimallaşdırılmasına da mühüm təsir göstərir.

**E.CƏFƏRLİ**

# Milli Məclisdə bələdiyyələrin fəaliyyətinə dair illik məruzə dinlənilib

Fevralın 14-də Milli Məclisin plenar iclasında bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib. Məruzəni ədliyyə nazirinin müavini Vilayət Zahirov təqdim edib. Məruzədə bildirilir ki, 2016-cı ildə bələdiyyələrin fəaliyyəti ilə bağlı vətəndaşlardan müraciətlər daxil olub, bələdiyyə aktlarının ekspertizası aparılıb. Qeyd olunub ki, ümumilikdə vətəndaşlardan Bələdiyyələrlə İş Mərkəzinə 2320 müraciət daxil olub. Bu müraciətlərin 50 faizi torpaq məsələləri ilə bağlıdır. Həmin müraciətlərin 538-i torpaq sahələrinin ayrılmaması, 145 müraciət torpaq sahələrinin sənədləşdirilməməsi, 557 müraciət isə torpaq mübahisələri ilə əlaqədardır. Torpaq mübahisələri vətəndaşlarla bələdiyyələr və vətəndaşların aralarında olub. Müraciətlərin 126-sı təmin edilib. 27 müraciətlə əlaqədar inzibati araşdırma aparılıb. Bunlardan 9 fakt üzrə xırda nöqsanlar aşkarlanıb, bələdiyyələrə bu nöqsanların aradan qaldırılması üçün tövsiyələr verilib. Müraciətlər üzrə 18 fakt üzrə çox ciddi pozuntu aşkarlanıb və prokurorluq orqanlarına müraciət edilib. Bələdiyyə aktlarının ekspertizası və müraciətlər də nəzərə alınmaqla, il ərzində 58 fakt üzrə hüquq-mühafizə orqanlarına müraciət edilib, 12 cinayət işi başlanıb. Bildirilib ki, bu işlərlə bağlı bir məhkəmə qərarı verilib. Ötən il Qusar rayonunun Samur bələdiyyəsində 70 hektar torpağın 30 min manata qanunsuz satılması, torpaqların şübhəli sənədlərlə xüsusi mülkiyyətə verilməsi faktı aşkarlanıb. 2016-cı ildə 8359 hektar qanunsuz verilən bələdiyyə torpağı bələdiyyələrə qaytarılıb.

Sonra məruzə ətrafında müzakirələr aparılıb. Çıxış edənlər məruzənin əsaslandırılmış şəkildə, dolğun və əhatəli hazırlandığını qeyd ediblər.

# Dövlət Neft Fondunun ötən il üzrə gəlir və xərcləri

2016-cı il ərzində Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) büdcə gəlirləri 9.410,2 milyon manat, büdcə xərcləri isə 9.022,1 milyon manat təşkil edib. 2016-cı il ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 8.341,4 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 8.320,0 milyon manat, bonus ödənişləri 0,1 milyon manat, tranzit gəlirləri 18,0 milyon manat və akrhesabı ödənişlər 3,3 milyon manat təşkil edib.

Ötən il ərzində fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 1.068,8 milyon manata bərabər olub. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri 5.705,7 milyon manat təşkil edib.

Fondun 2016-cı il büdcəsinin icrası çərçivəsində 7.615,0 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 90,0 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 70,0 milyon manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 66,2 milyon manat vəsait ayrılıb. 31,6 milyon manat vəsait «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə yönəldilib.

«Cənub Qaz Dəhlizi» layihəsi üzrə 797,4 milyon manat, «STAR» neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə isə 331,8 milyon manat vəsait ayrılıb. 2016-cı il ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 20,1 milyon manat təşkil edib.

2017-ci il yanvarın 1-nə fondun aktivləri 2016-cı ilin əvvəlinə (33 574,1 milyon ABŞ dolları) nisbətən 1,27 faiz azalaraq 33.147 milyon ABŞ dollarına bərabər olub. Gəlirlərin xərcləri üstələməsinə baxmayaraq, fondun aktivlərinin azalmasının səbəbi avro, ingilis funt sterlinqi, türk lirəsi və Çin yuanı kimi valyutaların məzənnələrinin ABŞ dollarına qarşı zəifləməsi olmuşdur.

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Daşınmaz əmlakın icarəyə götürülməsi

***ƏDV qeydiyyatında olan müəssisə digər vergi ödəyicisi olan fiziki şəxslə icarə müqaviləsi bağlayaraq, icarəyə daşınmaz əmlak götürmüşdür. Bu halda müəssisə tərəfindən icarə haqqı nağd qaydada ödənilə bilərmi?***

Vergi Məcəlləsinin 16.1.11-8-ci maddəsinə əsasən, qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların yalnız nağdsız qaydada həyata keçirilməsini təmin etmək vergi ödəyicisinin vəzifəsinə aid edilmişdir.

Azərbaycan Respublikasının «Nağdsız hesablaşmalar haqqında» 16 dekabr 2016-cı il tarixli 416-VQ nömrəli Qanununun 3.3-cü maddəsində qeyd edilmişdir ki, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

**Qeyd olunanlara əsasən:**

ƏDV məqsədləri üçün qeydiyyatda olan müəssisə tərəfindən digər vergi ödəyicisindən icarəyə götürülmüş daşınmaz əmlaka görə ödənilən icarə haqqı 30 min manat hədd daxilində nağd qaydada ödənilə bilər.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2017-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə müəssisələrin ümumi sayının **80,6%**-ni kiçik müəssisələr təşkil edib.
- Azərbaycanda ötən il yaradılan müəssisələrin **31%**-i ticarət, **13,5%**-i müxtəlif sahələrdə xidmətlərin göstərilməsi, **11,8%**-i tikinti, **10,9%**-i isə kənd təsərrüfatı sahələrində fəaliyyət göstərib.
- 2016-cı ildə **270** ixrac və investisiya təşviqi həyata keçirilib.
- Ötən il Azərbaycanla Belarus arasında ticarət dövriyyəsi **33%** artıb.
- Bu ilin yanvar ayında ölkəmizdə pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni ayının səviyyəsini müqayisəli qiymətlərlə **1,3%** üstələyərək, **2,6 mlrd.** manata bərabər olub.
- İstifadəsiz qalan **200 min** hektar torpaq sahəsinə dair **935** icarə müqaviləsinə xitam verilib.
- Bu günədək tutumlarının **78%**-nin satışı reallaşdırılmış «Azerspace-1» peykinin kommersiya fəaliyyətindən **50 mln.** dollardan çox vəsait əldə edilib.

# Yeni elektron xidmətlər istifadəyə verilib

Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə «Fiziki şəxsin vergi uçotundan çıxarılması», «Vergi borcu barədə məlumatın verilməsi», «Asan imza» istifadəçi İD-sinin dəyişdirilməsi» elektron xidmətlərinin inzibati reqlamentləri təsdiq olunub. Beləliklə, nazirliyin göstərdiyi elektron xidmətlərin sayı 63-ə çatıb.

### «Asan imza» istifadəçi İD-sinin dəyişdirilməsi

«Asan imza» istifadəçi İD-sinin dəyişdirilməsi üçün AsanDoc proqram təminatından faydalanmaq və ya Vergilər Nazirliyinin Çağrı Mərkəzinə müraciət etmək lazımdır. Elektron xidmətin icra müddəti istifadəçinin «Asan imza» vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq, 3-5 dəqiqədir.

Elektron xidmətin istifadəçiləri ASXM-dən «Asan imza» əldə etmiş şəxslərdir. Xidmətin göstərilməsi üçün hər hansı sənəd tələb olunmur. İstifadəçi, sadəcə, «Asan imza»ya və ondan istifadəyə imkan verən vasitələrə malik olmalıdır. Xidmətdən istifadə üçün https://asanimza.az internet səhifəsindən yüklənmiş AsanDoc proqram təminatında istifadəçi İD-sinin dəyişdirilməsi üçün mövcud istifadəçi İD-si və yeni istifadəçi İD-si müvafiq xanalara qeyd edilməli və mobil telefonda PİN1 daxil etməklə əməliyyat təsdiqlənməlidir. Əməliyyatın sonunda istifadəçi İD-sinin müvəffəqiyyətlə dəyişdirilməsi barədə məlumat ekranda əks olunacaq. İstifadəçi Çağrı Mərkəzinə müraciət etdikdə isə ondan soruşulan «Asan imza»nın bağlı olduğu mobil telefon nömrəsini, yeni istifadəçi İD-si məlumatını Çağrı Mərkəzinin əməkdaşına bildirməlidir. Bundan sonra istifadəçiyə mövcud və yeni təqdim olunan istifadəçi İD-si barədə SMS göndəriləcək. İstifadəçi SMS-lə tanış olduqdan sonra razılığını Çağrı Mərkəzinin təmsilçisinə bildirməlidir. Bundan sonra mobil telefonda yoxlama kodunu təsdiqləməli və «Asan imza» PİN 2 kodunu daxil etməklə imzalamalıdır. Əməliyyat başa çatdıqdan sonra istifadəçinin «Asan imza»nın bağlı olduğu mobil telefon nömrəsinə istifadəçi İD-sinin dəyişdirilməsi barədə SMS gələcək. İstifadəçinin İnternet Vergi İdarəsində elektron qutusu olduğu halda, «Onlayn kargüzarlıq» səhifəsinə də əməliyyat tarixçəsi barədə məlumat göndəriləcək. İstifadəçi İD-sinin dəyişdirilməsi əməliyyatı istifadəçi tərəfindən təsdiqləndiyi andan sistemdə dəyişiklik aparılacaq.

«Asan imza»nın bağlı olduğu mobil telefon nömrəsi səhv bildirildikdə, mobil nömrədə «Asan imza» xidməti aktiv olmadıqda, istifadəçinin «Asan imza» sahibi olmadığı müəyyən edildikdə, yeni istifadəçi İD-si dəqiq bildirilmədikdə və xidmət yekunlaşdırılmadan əlaqə kəsildikdə istifadəçi İD-sinin dəyişdirilməsindən imtina edilir.

### Vergi borcu barədə məlumatın verilməsi

Bu xidmət vasitəsilə istifadəçilər Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng edərək və ya nazirliyin rəsmi internet səhifəsində vergi ödəyicisinin VÖEN-ni daxil edərək dövlət büdcəsinə olan vergi borcu barədə məlumat əldə edirlər. Elektron xidmətin icrası istifadəçinin tələb olunan məlumatları sistemə daxil edərək təsdiqlənməsindən və əməliyyatların formasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq, dərhal həyata keçirilir. Xidmətin istifadəçiləri fiziki və hüquqi şəxslərdir və bu xidmətdən istifadə üçün heç bir ödəniş nəzərdə tutulmayıb.



Elektron xidmət http://www.taxes.gov.az, http://www.e-gov.az, http://www.dxr.az ünvanlarında təqdim olunur. Xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirildikdə istifadəçi tərəfindən yuxarıda qeyd edilən internet səhifələrində Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin siyahısından «Vergi borcu barədə məlumatın verilməsi» xidmət növü seçilməlidir. Bu zaman açılan ekranda «VÖEN» qrafasına vergi ödəyicisinin VÖEN-i daxil edilərək, «Yoxla» düyməsi sıxılmaqla vergi borcunun olub-olmaması barədə məlumat əldə olunacaq.

Elektron xidmət Çağrı Mərkəzi (195-1) vasitəsilə həyata keçirildikdə isə iş saatlarında 195 nömrəsinə zəng etmiş istifadəçi 1 düyməsini sıxmaqla Vergilər Nazirliyinə qoşularaq vergi ödəyicisinin dövlət büdcəsinə olan vergi borcu barədə məlumat almaq üçün 3 düyməsini sıxmalı, daha sonra müvafiq dildə məlumat almaq üçün seçdiyi dilə uyğun olan düyməni seçməli, VÖEN rəqəmlərini yığmaqla «#» düyməsini sıxmalıdır. Qeyri-iş saatlarında 195-1 nömrəsinə zəng etmiş istifadəçi Vergilər Nazirliyinə qoşulur, müvafiq dildə məlumat almaq üçün seçdiyi dilə uyğun düyməni seçir, daha sonra isə vergi ödəyicisinin vergi borcu barədə məlumat almaq üçün 2 düyməsini sıxır, VÖEN rəqəmlərini daxil edir, «#» düyməsini sıxır. Qeyd edilən əməliyyatlar düzgün aparıldıqda sorğu qəbul olunur.

Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirildikdə, sorğunun informasiya sistemində emalı müddətindən asılı olaraq, vergi ödəyicisinin dövlət büdcəsinə vergi borcunun məbləği ekranda göstərilir. Elektron xidmət Çağrı Mərkəzi vasitəsilə həyata keçirildikdə isə vergi ödəyicisinin dövlət büdcəsinə vergi borcunun məbləği telefonda səsləndirilir.

**A. NƏBİYEVA**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin fevral və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-cı ilin fevral və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**

# Sabit vergi və onun tətbiqi

## *Vergi ödəyiciləri üçün praktiki vəsait istifadəyə verilib*

Vergilər Nazirliyinin rəsmi internet saytında (www.taxes.gov.az) Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin məlumatları əsasında hazırlanan «Sabit vergi və onun tətbiqi» adlı yeni bölmə istifadəyə verilib. Bölmədə sabit vergi ilə bağlı məlumatlarla yanaşı, bunlarla da tanış olmaq mümkündür:

- sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında təqdimat;
- fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi şəklində müəyyən edilməsinə dair izahlı məlumat;
- sabit vergi haqqında izahlı buklet;
- sadələşdirilmiş vergi üzrə sabit verginin ödənilməsi haqqında qəbzin alınması üçün ərizə forması;
- sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz və qəbzin alınması forması;
- sadələşdirilmiş vergi üzrə sabit verginin ödənilməsi haqqında qəbzin alınması üçün ərizənin doldurulması qaydası.

### Sabit verginin ödəyicisi kimlərdir?

Sabit vergi dedikdə fərdi şəkildə fəaliyyət göstərən fiziki şəxsin gəlirindən və dövriyyəsindən asılı olmayaraq ödədiyi dəyişilməz vergi məbləği nəzərdə tutulur. Bu vergi növünün tətbiqi ilə bağlı Vergi Məcəlləsinə 16.1.7-1-ci, 58.12-ci, 218.4.4- cü, 220.10-cu, 220.11-ci və 221.8-ci maddələr əlavə edilmişdir. Məcəlləyə edilən həmin əlavələrə əsasən, sabit vergi üzrə fəaliyyət göstərən vergi ödəyiciləri fəaliyyətin faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilən vergi məbləğini ödəməlidirlər. Fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda hər bir fəaliyyət növü üzrə ayrıca qəbz almalıdırlar. Qəbzin forması Vergilər Nazirliyi tərəfindən müəyyən edilib və formada qəbzin seriya və nömrəsi, fiziki şəxsin VÖEN-i, qəbzin verildiyi tarix, vergi ödəyicisi olan fiziki şəxsin adı, atasının adı və soyadı, fəaliyyətin adı və fəaliyyətin həyata keçirildiyi ərazi, ödənilmiş verginin məbləği və qəbzin qüvvədə olma müddəti əks etdirilib. Bu fəaliyyət üzrə vergi orqanına bəyannamə təqdim edilmir. Ödənilmiş vergi həmin qəbzin qüvvədə olduğu müddətdə fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarımil və il) vergiləri ilə əvəzləşdirilmir (Cədvəl 1).

Sabit verginin ödəyicisi olan fiziki şəxs, əgər vergi orqanında uçota alınmamışdırsa, ilk növbədə qeydiyyatda olduğu ərazinin vergi orqanına və ya vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət etməli və VÖEN almalıdır

### Qanunu pozanlara qarşı hansı maliyyə sanksiyası tətbiq edilə bilər?

Fiziki şəxslər qeyd edilən fəaliyyət növlərindən bir neçəsi ilə məşğul olduğu halda «Sabit verginin ödənilməsi haqqında qəbz»i hər bir fəaliyyət növü üçün ayrılıqda almalıdırlar. Fəaliyyət növləri ilə işçi cəlb etmədən fərdi qaydada məşğul olan fiziki şəxs «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almadan fəaliyyət göstərərsə, qanunu pozmuş olur və maliyyə sanksiyası ilə üzləşə bilər. Təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 40 faizi miqdarında, iki və daha çox hallarda həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi məbləğinin 100 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir. Vergi öhdəliklərini «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» əldə etməklə sadələşdirilmiş qaydada yerinə yetirən fiziki şəxslər nağd pul hesablaşmalarının aparılması zamanı alıcıya nəzarət-kassa aparatı çeki istisna olmaqla, ciddi hesabat blankı olan qəbz də təqdim etməlidirlər. Qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blankı olan qəbzdən istifadə etmədən nağd pul hesablaşmalarının aparılmasına, alıcıya qəbzin verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərməklə verilməsinə görə də maliyyə sanksiyası ilə üzləşə bilərlər. Təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 400 manat, ikinci dəfə yol verildikdə 800 manat, üç və daha çox hallarda isə 1200 manat maliyyə sanksiyası tətbiq edilir.

Sabit verginin ödəyicisi olan fiziki şəxs, əgər vergi orqanında uçota alınmamışdırsa, ilk növbədə qeydiyyatda olduğu ərazinin vergi orqanına və ya vergi ödəyicilərinə xidmət mərkəzinə müraciət etməli və VÖEN almalıdır. Şəxs öz istəyinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» ala bilər.

**Aytən NƏBİYEVA**

*Cədvəl 1*

| Fəaliyyət növünün adı | Aylıq sabit vergi məbləği (manatla) |
|---|---|
| Toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət | 30 |
| Fərdi foto, audio-video xidmətləri (foto studiyalar istisna olmaqla) sahəsində fəaliyyət | 30 |
| Çəkməçi, pinəçi | 5 |
| Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri | 10 |
| Fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və digər analoji işlər | 10 |
| Nəqqaşlıq emalatxanalarının fəaliyyəti | 20 |

### Sabit vergi necə hesablanır?

Yuxarıda qeyd edilən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər üçün aylıq verginin məbləği aşağıdakı əmsallar tətbiq edilməklə müəyyən edilir (Cədvəl 2).

Misal üçün, şənliklərdə aparıcılıqla məşğul olan şəxsin aylıq sabit vergisinin məbləği ayrı-ayrı şəhərlərdə aşağıdakı qaydada hesablanacaq:

- Bakı şəhərində *30 manat * 2 əmsal * 1 ay = 60 manat*
- Gəncə şəhərində *30 manat * 1,5 əmsal * 1 ay = 45 manat*
- Şəki şəhərində *30 manat * 1 əmsal * 1 ay =30 manat*
- Qazax şəhərində *30 manat * 0,5 əmsal * 1 ay = 15 manat*

*Cədvəl 2*

| Ölkə üzrə tətbiq olunan əmsallar | Əmsal |
|---|---|
| Bakı şəhərində (kənd və qəsəbələr daxil olmaqla) | 2,0 |
| Gəncə, Sumqayıt və Xırdalan şəhərlərində | 1,5 |
| Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərində | 1 |
| Digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) | 0,5 |

# Sahibkarlar fəaliyyətlərini şəffaf qurmalıdırlar

**2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Nağdsız hesablaşmalar haqqında» qanunlara əsasən, ölkə ərazisində tütün məmulatlarının satışının nağdsız qaydada həyata keçirilməsi təsbit edilib. Qanuna əsasən, həmin məhsulların pərakəndə satışı istisna olmaqla, alğı-satqısı yalnız nağdsız qaydada aparılmalıdır. Pərakəndə satış mağazaları siqaret aldıqları topdansatış müəssisəsinin bank hesabına pul köçürməli, yaxud əməliyyatları bank kartları vasitəsilə həyata keçirməlidir. Qanunvericiliyin təkmilləşdirilməsinin əsas məqsədi aksizli malların satışı sahəsində şəffaflığa, ticarət obyektlərində uçot işinin düzgün təşkilinə nail olmaqdır. Bəzi pərakəndə satış obyektləri topdansatış şəbəkələrindən siqaret ala bilmədiklərini, firmaların kiçik sahibkarları siqaretlə təmin etmədiklərini iddia edirlər. Nəticədə isə mağazalarda siqaret qıtlığı yaranır.**

### Satıcılar nağdsız ödənişlər barədə məlumatlandırılıb

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Şamil Ərəbovun qeyd etdiyinə görə, tütün məmulatlarının nağdsız qaydada satışı 2016-cı ilin yanvarından nəzərdə tutulsa da, dövlət bu sahənin ticarəti ilə məşğul olanlara güzəşt edərək onlara 1 il müddət verdi. Bu, həmin malları satanların yeni qaydalara uyğunlaşmaq üçün hazırlıq müddəti idi.

İndiyədək sahibkarlar nağdsız hesablaşmalara keçidlə bağlı yetərincə məlumatlandırılıb. Vergilər Nazirliyi ötən ilin sonlarından başlayaraq sahibkarlarla qanunvericiliyə edilmiş dəyişikliklər mövzusunda görüşlər keçirib, onlar izahedici və digər məlumat xarakterli təşviqat materialları ilə təmin edilib. Yanvarın 16-dan 29-dək regionlarda, eləcə də Bakı şəhərində vergi ödəyiciləri ilə keçirilən silsilə görüşlərdə Məcəlləyə edilmiş dəyişikliklərin mahiyyəti sahibkarlara ətraflı şəkildə çatdırılıb, onların üzərinə düşən öhdəliklər, fəaliyyətlərini qanunvericiliyin yeni tələblərinə uyğun qurmaları və digər məsələlər izah edilib. Bu tədbirlərin hər birində ictimai iaşə, topdan və pərakəndə ticarət obyektləri, aksizli malların satış və alışı ilə məşğul olan vergi ödəyiciləri iştirak ediblər. Vergilər Nazirliyinin xidmət mərkəzləri, «195» Çağrı Mərkəzinin əməkdaşları sahibkarların ünvanladığı bütün sualları ətraflı şəkildə cavablandırır. Yerlərdə ərazi vergi idarələri və vergi ödəyicilərinə xidmət mərkəzlərində bütün məsələlərə aydınlıq gətirilir. Bir sözlə, fiziki şəxslər və sahibkarlar, o cümlədən tütün məmulatlarının satışı ilə məşğul olanlar üçün 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş yeni dəyişikliklər barədə bütün məlumatları əldə etmək, fəaliyyətlərini buna uyğun qurmaq və digər məsələlərin həllinə nail olmaq baxımından geniş imkanlar yaradılıb.

Aparılan məlumatlandırma-təşviqat tədbirlərinə və yaradılmış bütün imkanlara baxmayaraq, ictimai iaşə, topdan və pərakəndə ticarət obyektləri, aksizli malların (tütün məmulatları) satışı ilə məşğul olan bəzi sahibkarlar fəaliyyətlərini yenə də qanun çərçivəsində qurmur və nağdsız hesablaşmalara keçmir, fəaliyyətlərini şəffaf qurmaq istəmirlər. Siqaretin satışında süni problemlər yaratmaq cəhdlərinin kökündə də məhz bu amillər dayanır.

İqtisadçı-ekspert Vüqar Bayramovun sözlərinə görə, iri topdansatış müəssisələri siqaretin nağdsız şəkildə satılmasına maraq göstərmir. Amma bu qərar real şəraitin tələblərindən irəli gəlir.

### Supermarketlərdə siqaretlə bağlı heç bir problem yoxdur

Əslində, iri supermarket şəbəkələrində siqaret satışı ilə bağlı hansısa problemin olduğunu demək olmaz. Müşahidə apardığımız əksər ticarət obyektlərində siqaret satışının həmişəki kimi öz qaydasında olduğunu gördük. Topdansatış müəssisələri bu mağazaları, əvvəllər olduğu kimi, kifayət qədər tütün məhsulları ilə təmin edir. Topdansatış qiymətində də heç bir artım yoxdur. Çünki bu müəssisələrin bank hesabları mövcuddur və apardıqları hesablaşmalar nağdsız həyata keçirilir. Orta ticarət obyektlərində də siqaret təminatı ilə bağlı problemlər, demək olar ki, mövcud deyil. Onların da bank kartları və hesabları olduğundan yeni qaydaların tətbiqindən sonra hər hansı çətinliklə üzləşməyiblər.

Bəzi mağazalarda siqaretlərin qiymətinin cüzi artımı pərakəndə satışla bağlıdır. «Əvvəllər topdansatışla məşğul olanlar pərakəndə ticarət mərkəzlərinə sifariş olunan həcmdə siqaret gətirir, müəyyən müddətdən sonra gəlib malın pulunu götürürdülər. Siqaretlərin nağdsız qaydada əvvəlcədən ödəniş edilməklə alınması üçün böyük məbləğdə pul lazımdır. Belə davam etsə, pərakəndə ticarətlə məşğul olanlar qiymətləri qaldırmalı olacaqlar», - deyə pərakəndə ticarət təmsilçilərindən biri bildirdi. Kiçik və nisbətən orta pərakəndə satış mağazalarının bank hesabları və ya kart almaq həvəslərinin olmaması səbəbindən onların topdansatış obyektləri ilə problemləri meydana çıxır.

Bank hesabı açmaq və ya kart almaqla bağlı heç bir problem olmasa da, bəzi «işbazlar» dövlətin büdcəsinə daxil olmalı vergilərdən yenə əvvəlki kimi yayınmaq üçün belə xırda sabotaj cəhdlərinə əl atırlar.

### Hər kəs qanunlara hörmətlə yanaşmalı, şəffaflığı təmin etməlidir

«Azad İstehlakçılar» İctimai Birliyinin sədri Eyyub Hüseynovun sözlərinə görə, topdansatış şəbəkələrində nağd satışın dayandırılmasının saxta və keyfiyyətsiz siqaretlərin bazara daxil olması və qiymətlərinin süni şəkildə artırılması ilə heç bir bağlılığı yoxdur. Ticarət şəbəkələrində saxta və mənşəyi bilinməyən siqaretlərin satışı və süni qiymət artımı bütün dövrlərdə olub. Bu, sadəcə bir qrup işbazın və qaçaqmalçının yaratdığı ajiotajdır: «Bu cür hallar ölkəmizdə yaradılan liberal bazarın qaydalarına qarşı çıxmaq, açıq şəkildə dövlətin qanunlarını pozmaq deməkdir. Bu, həm də istehlakçıların hüquqlarının kobud şəkildə pozulmasıdır. Təəssüf ki, istehlakçı hüquqlarının və bazarda azad rəqabətin qorunmasına cavabdeh olan qurumların fəaliyyətsizliyi nəticəsində bu cür hallar davam edir. Biz ötən ilin may ayında Şəkidə bir müəssisənin insan sağlamlığı üçün xüsusi təhlükə yaradan siqaret istehsal etməsi barədə müvafiq dövlət orqanına müraciət etdik və bir müddətdən sonra həmin müəssisənin fəaliyyəti dayandırıldı. Amma bir neçə gün əvvəl paytaxtın müxtəlif ünvanlarında həmin malların kütləvi satışına rast gəlmişik. Dövlət başçısı bildirib ki, bazarda keyfiyyətsiz, saxta və insanların həyatı üçün təhlükə törədən malların satışı dayandırılmalı, bununla bağlı sərt tədbirlər görülməlidir. Hamı dövlətin qanunlarına hörmət etməli, azad və rəqabət mühitində çalışmalı, fəaliyyətini şəffaf qurmalıdır».

E.Hüseynovun fikrincə, istehlak bazarında qaçaqmalçılıq yolu ilə saxta və keyfiyyətsiz siqaretlərin satışı kimlərəsə sərf edir. Bu, vergidən və dövlətə ödənişlərdən yayınma deməkdir. Nağd satışın dayandırılması, sadəcə, bəhanədir.

### Aksizli mallara nəzarət gücləndirilir

Aksizli malların istehsalı və satışı sahəsində ciddi nizam-intizamın yaradılması, bu sahəyə dövlət nəzarətinin gücləndirilməsi dövlət başçısının müvafiq orqanlar qarşısında qoyduğu əsas tapşırıqlardandır. Siqaretlə yanaşı, spirtli içkilərin istehsalı, idxalı və satışının qanun çərçivəsində təşkili, bu sahədə uçot və qeydiyyat sisteminin düzgün qurulması, şəffaflığın təmin edilməsi müvafiq qurumlar qarşısında əsas tapşırıqlardan biri kimi qarşıya qoyulub.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirib ki, ölkədə şərabçılıqla bağlı vəziyyət ciddi təhlil edilməlidir: «Çünki burada çox qəribə bir mənzərə üzə çıxır. Bizim mövcud şərab zavodlarımızın illik istehsal gücü 100 milyon butulkadır. Bu zavodların böyük əksəriyyəti son illər ərzində tikilib, oraya böyük vəsait də qoyulub və müasir avadanlıqlar quraşdırılıb. Necə ola bilər ki, 100 milyon butulka istehsal gücü olan zavodlarda cəmi 20 milyon butulka şərab istehsal edilir? Ya bu pulu qoyan sahibkar pulunun qədrini bilmir, ya da ki, orada istehsal daha böyükdür deyə, qeydiyyata düşmür. Necə deyərlər, orada qanunsuz istehsal baş verir».

Sahibkarlar anlamalıdırlar ki, aksiz markası olmayan malların, saxta siqaretlərin satışını təşkil etməklə yanaşı, nağdsız qaydada mal satışı da qanun pozuntusudur və bu pozuntulara görə onlar sanksiya və cərimələrlə üzləşə bilərlər. Qanunla müəyyən edilmiş qaydalara əməl olunması qeyri-leqal bazarın bağlanması, mənşəyi bilinməyən siqaretlərin satışdan çıxarılması və nəticədə dövlət büdcəsinə ödənilən vergi və rüsumların həcminin artması baxımından da əhəmiyyətlidir. Malı topdansatış mərkəzindən eyni qiymətə alan sahibkar heç nə itirmir, sadəcə, onun nağdsız ödəmə vərdişi olmalıdır.

Nağdsız ödəmələrin kütləviləşməsində isə sahibkarlarla yanaşı, qazanan dövlət və vətəndaşlar olacaq: büdcəyə əlavə vəsaitlərin daxil olması ölkə vətəndaşlarının mənafeyinə xidmət edir.

**E.CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan Prezidenti İlham Əliyev Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması haqqında sərəncam imzalayıb.

Nazirlər Kabineti «Təhlükə potensiallı və ya dövlət əhəmiyyətli tikinti obyektlərinin tikintisinə icazə ilə bağlı əlavə tələblər» haqqında sənədi təsdiq edib.

Fevralın 15-də Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən «Özəlləşdirmə sahəsinə investisiyalar: yeni imkanlar və çağırışlar» mövzusunda işgüzar forum təşkil ediləcək.

Azərbaycan və Gürcüstan avtomobil və yük daşımaları sahəsində icazələrlə bağlı razılığa gəlib.

2016-cı ildə Azərbaycan rusiyalı turistlər arasında populyarlığına görə ilk onluğa düşüb.

Özbəkistanın kun.uz portalı Azərbaycanın sənaye parkları haqqında material yerləşdirib.

Azərbaycanlı sahibkarların «Azexport.az» portalına daxil etdiyi məhsullar Rusiyanın məşhur «AqroServer.ru» portalına da yüklənəcək.

Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu xəttinin bu ilin mart ayında istifadəyə veriləcəyi gözlənilir.

# Vergi əməkdaşlarına təlim keçilib

Vergilər Nazirliyinin Tədris Mərkəzinin əməkdaşlarının müvafiq vergi departamentləri və ərazi vergi orqanlarının rəhbər vəzifəli şəxsləri üçün təşkil etdiyi təlimlər başa çatıb. «Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu sahəsində aktual məsələlər» mövzusuna həsr edilmiş təlimlərdə Vergilər Nazirliyi yanında Bakı şəhəri Kiçik sahibkarlıqla iş və Bakı şəhəri Lokal gəlirlər departamentlərinin 151 nəfər əməkdaşı iştirak edib. Tədris Mərkəzinin əməkdaşlarının ərazi vergi departamentləri və ərazi vergi idarələrində təşkil etdiyi təlimlərə isə 563 vergi orqanı əməkdaşı cəlb olunub. Üç həftə davam edən təlimlərdə vergi orqanlarının ümumilikdə 700-dən artıq əməkdaşı iştirak edib.

Yüksək fəallıq və diskussiya şəraitində keçən təlimlərdə Vergi Məcəlləsinə edilmiş dəyişikliklər, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı qanunvericilikdə edilmiş dəyişikliklərin mahiyyəti, qanunvericiliyinin tətbiqi ilə bağlı qarşıya çıxan problemlər və onların həlli yolları, vergi orqanlarında etik davranış normaları və digər məsələlər müzakirə olunub. Təlimçilərin «Nağdsız hesablaşmalar haqqında» Qanunun müvafiq maddələri, ƏDV-nin qeydiyyatı və hesablanması, vergi borclarının geri qaytarılması, əmlakın və torpağın satışında vergilərin hesablanması, idxalın vergiyə cəlb edilməsi, pərakəndə ticarətin ƏDV-yə cəlb olunması və digər mövzulara aid sualları cavablandırılıb.

**ELBRUS**

# Ötən il orta aylıq əməkhaqqında artım olub

2017-ci il yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 514,0 min nəfər olmuş, onlardan 889,9 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 624,1 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 22,2%-i təhsil, 19,3%-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8%-i sənaye, 8,8%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1%-i dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5,9%-i tikinti, 4,6%-i nəqliyyat və anbar təsərrüfatı, 3,7%-i peşə, elmi və texniki fəaliyyət, 3,1%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,7%-i maliyyə və sığorta fəaliyyəti, 10,8%-i isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2016-cı ilin yanvar-dekabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,9 faiz artaraq 498,6 manat olmuşdur.

İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, tikinti, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Vergilər Nazirliyi sosial şəbəkələrdə...

## *Artıq «İnstagram» istifadəçiləri də vergilərlə bağlı operativ məlumatları əldə edə biləcəklər*

Vergilər Nazirliyi vətəndaşa, dolayısı ilə vergi ödəyicisinə daha rahat və sürətli informasiya ötürmək baxımından hər zaman yeniliklərə imza atan, sosial şəbəkələrin imkanlarından faydalanan dövlət qurumu kimi tanınıb. Nazirlik vergi ödəyiciləri və əhali ilə birbaşa əlaqəni təmin etmək məqsədilə ilk olaraq 2011-ci ildə «Facebook» sosial şəbəkəsində səhifə açıb (facebook.com/vergiler). Rəsmi qurumlar arasında Vergilər Nazirliyinin bu sosial şəbəkəsindəki səhifəsi daim birincilər sırasında olub. Bu səhifə vasitəsilə həm vergilərlə bağlı məlumatlar istifadəçilərə çatdırılır, həm də vergi ödəyicilərini maraqlandıran suallar tez bir zamanda aidiyyəti üzrə cavablandırılması üçün «195» Çağrı Mərkəzinə və ya nazirliyin rəsmi saytının «Sual-cavab» blokuna ünvanlanır. Səhifədə, mütəmadi olaraq, Vergi Məcəlləsinin müddəaları barədə sahibkarları maraqlandıran məlumatlar yerləşdirilir, vergilərlə bağlı digər rəsmi saytlardakı informasiyalar ödəyicilərə çatdırılır.

Hal-hazırda istifadəçilərinin sayı 42.000-ə yaxın olan Vergilər Nazirliyinin «Facebook» səhifəsi fəaliyyətə başladığı ilk il ərzində Avrasiya Qəzetçilər Dərnəyi tərəfindən türkdilli ölkələrin dövlət qurumlarının sosial şəbəkələrdəki aktivliyini araşdırmaq məqsədilə keçirdiyi müsabiqənin qalibi olub, 2015-ci ilin dekabrında isə Azərbaycan İnternet Forumu tərəfindən təsis edilmiş Milli İnternet Mükafatının «Ən yaxşı sosial şəbəkə səhifəsi» nominasiyası üzrə 1-ci yeri tutub.

2011-ci ildə nazirliyin YouTube video-hostinqində rəsmi videokanalı (youtube.com/VergilerNazirliyi) da fəaliyyətə başlayıb. Bu səhifədə nazirliyin təbliğat-təşviqat xarakterli reklam çarxları və digər qəbildən olan məlumat xarakterli video görüntüləri yer alır və mütəmadi şəkildə yenilənir. Bu günədək kanalda vergilərlə bağlı 202 video yerləşdirilib və ümumilikdə 210.140 dəfə istifadəçilər tərəfindən izlənilib.

Vergilər Nazirliyinin «Twitter» sosial şəbəkəsindəki rəsmi səhifəsi isə (twitter.com/vergiler) 2012-ci ilin fevralından fəaliyyət göstərir və indiyədək burada vergilərlə bağlı 800-dək müxtəlif məlumat, o cümlədən 314 foto və video material yerləşdirilib. Bu şəbəkənin informasiya ötürmə imkanları «Facebook» sosial şəbəkəsi qədər geniş olmasa da, məlumatı daha operativ və sürətli ötürmə baxımından əlverişli hesab edilir. Məlumatlar lövhəsində 140 simvolluq yazı yerləşdirmə imkanı olduğundan, informasiyalar qısa şəkildə yazılaraq, «Facebook» səhifəsindəki mənbəyə istinad olunan keçid yazının sonuna əlavə edilir.

Sosial şəbəkələrlə bağlı ən son yenilik isə Vergilər Nazirliyinin bu ilin fevral ayında «İnstagram»da açılmış səhifəsi oldu (instagram.com/vergi.gov.az). Yeni fəaliyyətə başlamasına baxmayaraq, səhifə artıq istifadəçilərin böyük marağına səbəb olub. Onlar öz şərhlərində nazirliyin bu addımını müsbət dəyərləndirdiklərini bildirirlər. Hazırda səhifənin 116 izləyicisi var və indiyədək 16 paylaşım edilib. Paylaşımlarda vergi borclarına görə amnistiyaların tətbiqindən yararlanmaq hüququ barədə, sabit vergi ödəyiciləri, elektron ticarətin vergiyə cəlb olunması, elektron qaimə-fakturaların tətbiqi, vergi yoxlamalarına aid müddəalarda edilmiş dəyişikliklər, könüllü vergi açıqlaması, müvafiq ödənişlər müqabilində silinə biləcək borc məbləğlərini hesablayan elektron kalkulyator, vergi təqvimi, torpaq vergisinə və ƏDV-yə edilən dəyişikliklər, habelə vergi testi ilə bağlı materiallar yer alıb.




Xatırladaq ki, elektron xidmətlər sahəsində tətbiq etdiyi yeniliklərlə seçilən Vergilər Nazirliyi öz rəsmi internet səhifəsinin (taxes.gov.az) Android platformalı smartfon və planşetlər üçün əlavəsini və iOS versiyasını da istifadəçilərin ixtiyarına verib. Burada nazirlik haqqında, qanunvericilik, bəyannamələr, elektron xidmətlər, beynəlxalq əlaqələr və digər bölmələr yer alıb. Vergilər Nazirliyinin bu əlavələri sayəsində onlayn xidmətlər mobil rabitə istifadəçiləri üçün daha da əlçatan olub: onlar nazirliklə daha rahat və çevik əlaqə saxlamaq imkanı əldə ediblər.

**Aytən NƏBİYEVA**

# Regionlarda fəaliyyət göstərən bələdiyyələrlə görüşlər keçirilib

2017-ci ilin yanvar ayının 1-dən qüvvəyə minmiş «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» və «Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında» qanunların regionlarda fəaliyyət göstərən yerli özünüidarəetmə orqanlarının nümayəndələrinə ətraflı şəkildə çatdırılması, qanunvericiliyin müvafiq tələblərinə uyğun olaraq bələdiyyələrin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi məqsədilə Vergilər Nazirliyinin ərazi vergi departamentləri və idarələri tərəfindən bölgələrdə silsilə görüşlər keçirilib.

**_Sabit verginin ödəyicisi olan fiziki şəxs vergi orqanında uçota alınmaq üçün qeydiyyatda olduğu ərazinin vergi orqanına və ya xidmət mərkəzinə müraciət etməli, VÖEN və «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır_**

Fevralın 9-da Göygöl və Samux rayonlarında sahibkarlar və yerli özünüidarəetmə orqanlarının rəhbərləri ilə keçirilən görüşdə vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasında rolu, bələdiyyələrin vergi ödəyiciləri ilə münasibətlərinin yeni dövrün tələblərinə uyğun qurulması, qanunvericiliyin tələblərindən irəli gələn digər məsələlərin həlli geniş müzakirə olunub. 12 saylı Ərazi Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev çıxış edərək bildirib ki, məcəlləyə edilmiş dəyişikliklərin böyük bir qismi sahibkarların fəaliyyəti üçün daha əlverişli şərait yaradılmasına xidmət edir. Regionlarda çalışan vergi ödəyiciləri üçün əlverişli biznes mühitinin təmin olunması, onların fəaliyyətinin genişləndirilməsi, qeyri-neft sektorunun inkişaf etdirilməsi, büdcədə regionlardan daxil olan vergi yığımlarının həcminin artırılması üçün yaxşı imkanlar yaradılıb. Sahibkarlar bu fürsətdən istifadə etməli, fəaliyyətlərini daha da genişləndirməlidirlər.

R.Mirzəyev regionlarda kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan şəxslərin, torpaq vergisi istisna olmaqla, digər vergilərin ödənilməsindən azad edildiyini, cari ildən kənd təsərrüfatı məhsullarının istehsalı ilə emalı üzrə sərhədlərin müəyyənləşdirildiyini bildirib. Qeyd olunub ki, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsi kənd təsərrüfatı məhsullarının istehsalı hesab olunur. Həmin növ məhsulların ilkin formasının dəyişdirilməsi, hər hansı kimyəvi təsirə məruz qalması və tərkibinin dəyişdirilməsi, konservləşdirilməsi emal məhsullarına aiddir.

Vergi Məcəlləsində sadələşdirilmiş vergi üzrə sabit verginin tətbiqi nəzərdə tutulub və cari il yanvarın 1-dən bəzi fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği ödəməlidirlər. Bu məqsədlə vergi orqanlarının nəzarət əhatəsində olan ərazilərdə həmin fəaliyyət növləri ilə məşğul olan şəxslərin zəruri məlumatlandırma işləri aparılır. Sabit verginin ödəyicisi olan fiziki şəxs vergi orqanında uçota alınmaq üçün qeydiyyatda olduğu ərazinin vergi orqanına və ya xidmət mərkəzinə müraciət etməli, VÖEN və «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almalıdır. Fiziki şəxslər qeyd edilən fəaliyyət növündən bir neçəsi ilə məşğul olduğu halda, «Sabit verginin ödənilməsi haqqında qəbz»i hər bir fəaliyyət növü üçün ayrılıqda almalıdır. Fiziki şəxslər üçün sadələşdirilmiş vergi onların fəaliyyət göstərdiyi ərazi üzrə müəyyən olunmuş müvafiq əmsallar tətbiq edilməklə hesablanır. Bu fəaliyyət üzrə vergi oqanına bəyannamə təqdim edilmir. Ödənilmiş vergi həmin qəbzin qüvvədə olduğu müddətdə şəxsin fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq, geri qaytarılmır və növbəti dövrlərin (ay, rüb, yarımil və il) vergiləri ilə əvəzləşdirilmir.

Sadələşdirilmiş sabit vergini ödəməyən şəxslərin sanksiyalarla üzləşəcəyi xatırladılaraq vurğulanıb ki, təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə fiziki şəxslərə sabit vergi məbləğinin 40 faiz miqdarında sanksiya tətbiq olunacaq. İl ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə isə həmin şəxslər sabit vergi məbləğinin 100 faizi məbləğində sanksiyaya məruz qalacaqlar. Bu dəyişikliklər fərdi qaydada fəaliyyət göstərən aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükünün azaldılmasına xidmət edir. Azərbaycandan kənarda həmin fəaliyyət növləri üzrə gəlir əldə etmiş şəxslər sabit vergi ödəyicisi sayılmadığından, onlar ümumi qaydada vergiyə cəlb edilirlər.

Tədbirdə bələdiyyələri yerli vergilərin toplanmasında üzərlərinə düşən vəzifələr və bu sahədə mövcud vəziyyətə də toxunulub. Bələdiyyə vergilərinin yığılmasında meydana çıxan çətinliklər, yerli özünüidarəetmə orqanları tərəfindən yerli vergi və ödənişlərin nağd şəkildə qəbulunun qadağan olunması və bu sahədə nizam-intizam tədbirlərinin gücləndirilməsi qeyd edilib. Bələdiyyələrə vergi ödəyicilərinin uçota alınması, tədiyyəçilərlə münasibətlərin tənzimlənməsi, yaşayış və qeyri-yaşayış sahələri, bələdiyyə torpaqlarının istifadəsi üzrə statistik məlumatların hazırlanması, ödənişlərin onlayn qaydada ödənilməsinin təmin edilməsi, şəffaflığın təmin olunması və digər məsələlər barədə tövsiyələr çatdırılıb.

**E.CƏFƏRLİ**

# Qida Təhlükəsizliyi Agentliyi yaradılır

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 10-da «Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» fərman imzalayıb. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi adlandırılacaq qurum bu fəaliyyətləri həyata keçirəcək:

- Azərbaycan Respublikasında qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni;
- sanitariya normaları və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanmasını və təsdiqini;
- risklərin təhlilini;
- qanunla müəyyən edilmiş qaydada gigiyenik sertifikatlaşdırma işinin aparılmasını;
- xarici ölkələrə ixrac edilən qida məhsullarına keyfiyyət sertifikatının verilməsini.

Bunlardan əlavə, yeni agentlik qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi sahəsində və «tarladan süfrəyədək» prinsipi əsasında məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsini təmin edəcək.

Agentlik 2018-ci il yanvarın 1-dən fəaliyyətə başlayacaq.

# Ölkədən pul çıxarılması ilə bağlı yeni qayda

Azərbaycan Mərkəzi Bankı (AMB) rezidentlər və qeyri-rezidentlər tərəfindən xarici valyuta ilə əməliyyatların aparılması qaydalarına dəyişiklik edib.

Dəyişikliklərə əsasən, fiziki şəxs xarici ölkəyə aylıq 30 min ABŞ dolları, o cümlədən bank hesabı vasitəsilə 10 min ABŞ dolları, hesab açmadan 10 min ABŞ dolları, yaxın qohumlara 10 min ABŞ dollarınadək vəsait göndərə bilər. Qohumların sayından asılı olmayaraq, bu məqsədlər üçün xaricə pul köçürmələrinin limiti 10 min ABŞ dolları təşkil edir.


## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik Departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik Departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik Departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik Departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1) zəng etməklə.

Vergilər Nazirliyi


# İslahatlar vergi ödəyicilərinin hüquqlarını genişləndirir

Vergi ödəyicilərinin hüquq və vəzifələrinin genişləndirilməsi məqsədilə Vergi Məcəlləsinə 15.1.2-1-ci, 16.1.4-1-ci, 16.1.7-1-ci və 16.1.11-3-16.1.11-8-ci maddələr əlavə edilmiş, 15.1.10-cu və 16.1.4-cü maddələrdə dəyişikliklər olunmuş, 16.1.8-ci və 16.1.11-1-ci maddələr yeni redaksiyada təsdiq edilmiş, eyni zamanda vergi agentinin öhdəliyinə aid 17.6-cı maddə əlavə olunmuşdur.

Dəyişikliklərə əsasən, vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsi məqsədilə vergi orqanlarına ərizə ilə müraciət etmək, qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya və (və ya) vergi sirrinin qorunmasını tələb etmək vergi ödəyicisinin hüquqlarına aiddir.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin şöbə rəhbəri Rəşad Qarayevin şərhinə əsasən, hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq təqvim ili ərzində Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər, qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə həmin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi Azərbaycan Respublikasının rezidenti və (və ya) qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlər ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara dair Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayışı təqdim etməlidirlər.

Bu şəxslərə dair məlumatları (o cümlədən onların reyestr məlumatlarını) vergi orqanının tələbi ilə təqdim etmək, «Sadələşdirilmiş vergi üzrə sabit vergi məbləği ödəyən şəxslərin nəzərdə tutulan fəaliyyət növlərini «Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz» almaqla həyata keçirmək, qəzet və jurnalların satışı (belə satış dövriyyəsinin ümumi dövriyyədəki payı 50 faizdən çox olduqda), kənd təsərrüfatı məhsullarının bazarlarda, yarmarkalarda və səyyar qaydada satışı, səyyar, bazarlarda və digər kütləvi ticarət yerlərində piştaxtadan, avtomobildən və qoşqu vasitələrindən pərakəndə satış fəaliyyəti, qiymətli kağızların və lotereya biletlərinin satışı, elektrik enerjisi, qaz, su, isti su təchizatı və mərkəzi qızdırma sistemi obyektlərinin fəaliyyəti istisna olmaqla, pərakəndə ticarət və (və ya) ictimai-iaşə fəaliyyəti üzrə nağd pul hesablaşmalarını nəzarət-kassa aparatı vasitəsilə həyata keçirmək lazımdır.

Nağdsız ödənişlərin aparılması üçün «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanuna uyğun olaraq, POS-terminalların quraşdırılmasını və (və ya) «Elektron ticarət haqqında» Qanuna uyğun olaraq, satıcı kimi fəaliyyət göstərdikdə istehlakçıların elektron ödəniş etmək imkanı təmin edilməlidir.

Vergi orqanının tələbinə əsasən maliyyə institutlarında vergi monitorinqinin aparılması ilə bağlı vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən həyata keçirilən maliyyə əməliyyatları barədə sənəd və məlumatları vergi orqanlarına və onların vəzifəli şəxslərinə təqdim etmək, maliyyə institutları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsi və Vergi Məcəlləsinə uyğun olaraq maliyyə institutları tərəfindən təqdim edilməsi nəzərdə tutulan məlumatların əks olunduğu forması Vergilər Nazirliyi tərəfindən təsdiq edilən elektron hesabatların təqdim olunması da vergi ödəyicilərinin hüquq və vəzifələri sırasındadır.

Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarının vəzifəli şəxslərinə əmlakın siyahıya alınmasına, həmin əmlakın məsul saxlamaya qoyulması üçün götürülməsinə zəruri şərait yaradılmalı, habelə onları bu sahədə qanuni fəaliyyətlərinə maneçilik törətməmək qanunauyğundur.

Sahibkarlıq fəaliyyəti həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada qaimə-faktura və ya elektron qaimə-faktura vermək, pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti zamanı malların (işlərin, xidmətlərin alıcılarına onların tələbinə əsasən nəzarət-kassa aparatının çeki ilə yanaşı, qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası təqdim etmək, qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların yalnız nağdsız qaydada həyata keçirilməsini təmin etmək də dəyişikliklər sırasında yer alıb. Bununla belə, qeyri-rezident şəxsin təyin etdiyi vergi agentinin təyin olunduqdan sonra 30 gün ərzində vergi orqanlarına Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayış təqdim olunması ilə bağlı öhdəliyi müəyyən edilmişdir.

Vergi ödəyiciləri hüquqlarından istifadə etməklə öz vəzifələrini lazımi qaydada icra edərsə, qanunvericiliklə müəyyən edilmiş maliyyə sanksiyaları və cərimələrlə rastlaşmazlar.

Audit və məsləhət xidmətləri göstərən «Crowe Horwath MAK Azərbaycan Ltd» şirkətinin rəhbəri Zamin Hüseynovun sözlərinə görə, hazırda yeni dəyişikliklər və öhdəliklərlə bağlı yüzlərcə müraciət olur: «Əməkdaşlarımız vergi ödəyiciləri və potensial investorlara öz hüquq və vəzifələrini izah edir, müştərinin tələbatına uyğun olaraq, bu hüquq və vəzifələrin həyata keçirilməsində birbaşa iştirak edirik. Vergi ödəyiciləri ilə əməkdaşlıq müxtəlif istiqamət və mərhələlərdə aparılır. Potensial investorların «Crowe Horwath» şəbəkəsinə aid xarici tərəfdaşlarımızın yönəltdikləri müraciətləri əsasında onlara Azərbaycanın vergi qanunvericiliyi izah edilir və burada öz bizneslərini açmaları üçün təşkilati dəstək verilir. Onlar sonradan bizim mühasibat xidmətlərindən istifadə etdikdə bu hüquq və vəzifələr birbaşa nəzarətimiz altında və tövsiyələrimizlə qorunur. Bundan əlavə, Azərbaycanda işləyən xarici vətəndaşlar üçün «payroll» (əməkhaqqından gəlir vergisi tutulması və sosial müdafiə ayırmalarının hesablanması) xidməti də göstəririk».

Z.Hüseynov qeyd etmişdir ki, audit xidməti göstərilərkən vergi ödəyicisinin öz vəzifələrini yerinə yetirməsi səviyyəsi yoxlanılaraq rəy verilir: «Biz, həmçinin, vergi ödəyicisinə onların hüquqları üzrə tövsiyələrimizi də ayrıca məktubla bildiririk. Məsələn, vergi ödəyicisi qanunla müəyyən edilmiş bəzi hallarda öz istəyinə uyğun olaraq ƏDV və ya sadələşdirilmiş vergi ödəyicisi kimi qeydiyyatdan keçə bilər. Hazırladığımız riyazi model vasitəsilə hər iki sistem üzrə maliyyə nəticələri proqnozlaşdırılır və müştəriyə fərq izah edilir. Təşkil etdiyimiz pulsuz seminarlara yüksək ixtisaslı mütəxəssislər cəlb edilir və onlarla canlı ünsiyyət imkanı yaradılır. Məsələn, 2016-cı ilin oktyabr ayında biz vergi orqanlarının, həmçinin özəl qurumların əməkdaşları üçün deoffşorlaşma və transfer qiymətlərin tətbiqi praktikası üzrə seminar keçirdik».

Z.Hüseynovun fikrincə, vergi ödəyicilərinin investisiya fəaliyyətinin bütün mərhələlərində vergi öhdəliklərinin nəzərə alınması mühüm məsələdir. Bu sahəyə ənənəvi münasibətin dəyişməsi auditorlar və vergi orqanlarının işçiləri üçün peşəkar borc kimi qəbul edilməlidir.

**Fəxriyyə İKRAMQIZI**

## vergi təqvimi

**FEVRAL**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

15 fevral - «(5)»

20 fevral - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1», «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi:** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Fərdi sahibkarlardan tutulan vergiləri artırmaq təklif olunub

Böyük Britaniyada fəaliyyət göstərən Fiskal Tədqiqatlar İnstitutunun araşdırmasına əsasən, hökumət fərdi sahibkarlıqla məşğul olan şəxslərdən tutulan vergiləri artırmalıdır - hazırda fərdi sahibkarlar da tədqiqat müəssisəsinin işçiləri qədər, ildə orta hesabla 1240 funt sterlinq (1550 dollar) vergi ödəyirlər. Fərdi sahibkarlardan tutulan vergilərin artırılması dövlətin büdcəsinə hər il 5 milyard funt sterliq vəsait cəlb edə bilər.

Büdcəyə məsul idarənin hesabatında isə göstərilmişdir ki, hazırkı təmayüllər davam edəcəyi təqdirdə, fərdi sahibkarlığın səviyyəsi ölkədəki məşğulluğun səviyyəsini geridə qoyacaq və 2021-2022-ci illərdən başlayaraq dövlətə əlavə 3,5 milyard funt sterlinq xeyir gətirəcək.

Hesabatda qeyd edilmişdir ki, büdcə üçün faydasından əlavə, vergi uyğunsuzluğu fərdi şəkildə məşğul insanlara əhəmiyyət verməyərək şirkətlərdə işləyən şəxsləri mükafatlandırmaqla vergi ödəyicisinin davranışına mənfi təsir göstərə bilər.

# Kanada hökuməti məlumatların itirildiyini təsdiqləyib

Dövlət Vergi Xidməti şifrələnmiş vergi məlumatlarının yazıldığı DVD-nin kuryer tərəfindən itirildiyini təsdiq etmişdir. DVD-də 28.000 vergi ödəyicisinə aid məlumatlar olmuşdur və kuryer 2014-cü ilin məlumatları yazılmış diski hökumətə çatdırmalı imiş.

Vergi Xidmətinin açıqlamalarına əsasən, artıq diskin axtarışlarına başlanılmışdır. O da qeyd edilmişdir ki, itirilmiş məlumatlardan kiminsə istifadə etməsi barədə hər hansı əlamət müşahidə olunmamışdır. Bundan əlavə, hətta belə bir cəhd edilmiş olsa belə, diskdəki məlumatlar şifrələndiyinə görə, onların başqa əllərə keçməsi riski çox azdır.

Vergi Xidməti itirilmiş diskin axtarılması məqsədilə polis orqanları və yerli hökumət qurumları ilə əməkdaşlığı davam etdirir. Əlavə məlumat almaq istəyən aidiyyati vergi ödəyiciləri üçünsə açıq telefon xətti fəaliyyət göstərir.

# Maltada turistlər üçün ƏDV-nin qaytarılması asanlaşdırılıb

Maliyyə Nazirliyi ilə «Fintrax Group» adlanan ticarət əməliyyatçısı arasında saziş imzalanandan sonra Maltada alınmış mallar üçün turistlərdən tutulan əlavə dəyər vergisinin qaytarılmasına tətbiq edilən prosedurlar sadələşdirilmişdir. Sazişə əsasən, əməliyyatçı Maltanın beynəlxalq hava limanında «Premier Tax Free» brendi altında ofis təşkil edəcək. İndiyədək Malta hökumətinin tələblərinə uyğun olaraq əlavə dəyər vergisinin qaytarılması prosesinə böyük miqyasda bürokratiya əngəlləri daxil idi - bu əngəlləri aşıb məlumatları emal etmək bəzən yarım ilə qədər uzanırdı. Ölkənin maliyyə naziri Edvard Şikluna demişdir: «İmzaladığımız saziş sayəsində hökumət topdansatış məntəqələrində biznesin qarşısını açmağa çalışır və biz əvvəlki kimi bürokratik əngəlləri aradan qaldırmaqda qəti səy göstərməkəzmindəyik».



# Süni intellektdən vergi məsələlərində istifadə ediləcək

Maşın təlimindən kompüter sistemlərində getdikcə daha çox istifadə edilir ki, bu da kompüter üçün müxtəlif təlimlərin keçilməsinə zəmin yaradır. «Watson» da belə sistemlərdən biridir. «IBM» şirkətinin istehsal etdiyi «Watson» superkompüteri vergi sistemi ilə bağlı müxtəlif əməliyyatları yerinə yetirməyə qadirdir. Artıq süni intellektin insanlara vergi öhdəliklərinə daha dəqiq əməl etməyə imkan yaradacağına ümid bəslənilir.

Son məlumatlara əsasən, «İBM» şirkəti «Watson» kompüterinə ABŞ-ın vergi sistemini «öyrətmək» üçün «H&R Block» adlı vergi məsləhəti şirkəti ilə əməkdaşlığa başlamışdır. Bu əməkdaşlıq vergi hesablamalarını dəfələrlə sürətli aparmağa, eləcə də ölkənin vergi sistemində daha yüksək dəqiqliyin təmin olunmasına yardım edəcək.

«Watson» superkompüteri böyük məlumat bazalarının emal edilməsi üçün maşın təliminin alqoritmlərindən istifadə edir. Bunun sayəsində lazım olan informasiyanın axtarılması üçün zəruri meyarları yadda saxlamaq və vaxt keçdikcə «təlim almaq» imkanına malikdir. «Watson» kompüter sistemindən indiyə qədər «Olli» markalı pilotsuz avtobuslarda və xəstəxana palatalarında istifadə edilmişdir. İndi isə superkompüter istehsalçılarının diqqətini ABŞ-ın Vergi Məcəlləsi cəlb etməyə başlamışdır. ABŞ-ın vergilərə dair qanunçuluğu, eləcə də müxtəlif vaxtlarda qanunlara edilmiş dəyişikliklər, əlavələr, normativ-hüquqi aktlar və digər aidiyyəti informasiyalar həcmcə 74.000 səhifədən artıqdır. Bu qədər böyük əhatəli sənədlərdən baş çıxarmaq insan intellekti üçün mümkünsüz görünsə də, sənədlərdəki məlumatları emal etmək «Watson» kompüterinə heç bir əngəl yaratmayacaq. Kompüterin süni intellekti cavabları əvvəlcədən hazır olan saysız-hesabsız suallar vasitəsilə «təlimləndirilir». Artıq sistem böyük miqdarda hesablamaları müstəqil şəkildə yerinə yetirə bilir. Bütün neyroşəbəkələrdə olduğu kimi, emal edilmək üçün «Watson»a yüklənən məlumatların sayı çox olduqca sistem də o qədər yaxşı işləyəcək. Bunu nəzərə alan «H&R Block» şirkətinin əməkdaşları sistemin məşqlərini davam etdirirlər.

# Şotlandiya gəlir vergisinin dərəcəsinə toxunmayacaq

Hökumət təsdiq etmişdir ki, gələn maliyyə ilində də gəlir vergisinin dərəcəsi toxunulmaz saxlanılacaq və yüksək dərəcə həddi 43 min funt sterlinq səviyyəsində dəyişməz qalacaq.

Həddin qaldırılmasından imtina edilməsi Şotlandiyanın Yaşıllar Partiyası ilə razılaşmanın tərkib hissəsini təşkil edir - partiya vəd vermişdi ki, hədd dəyişdirilmədiyi halda büdcəyə və hökumətlərarası sazişin imzalanmasına səs verəcək. Gəlir vergisinin dərəcəsinin toxunulmadan saxlanılması sayəsində şotlandiyalıların 99%-i builki kimi əlavə vergi ödəməyəcəklər.

«Yaşıllar Partiyası ilə danışıqlarda açıq şəkildə bildirdim ki, iqtisadi qeyri-sabitlik, inflyasiyanın və qiymətlərin artdığı şəraitdə hökumət gəlir vergisinin dərəcəsinin artırılmasını düzgün hesab etmir», - maliyyə naziri Derek Makkey bildirmişdir.

Xatırladaq ki, hazırda Şotlandiyada gəlir vergisinin dərəcələri belədir:

- gəlirləri £11 500 - £43 000 olan vətəndaşlar üçün baza dərəcəsi (20%);
- gəlirləri £43 000 - £150 000 olanlar üçün artırılmış dərəcə (40%);
- gəlirləri £150 000-dən artıq olanlar üçünsə əlavə artırılmış dərəcə (45%).

# Xəbər lenti

**Kanada**nın şimal-qərb ərazilərində tərkibində şəkər olan içkilər üçün 2018-2019-cu illərdə vergi tətbiq olunacaq.

**Soçi**dəki olimpiya idman obyektlərinin əksəriyyəti üçün 2014-cü ildən qüvvədə olan yerli əhəmiyyətli vergi güzəştləri ləğv edilmişdir.

**Rusiya**da öz müştəriləri haqqında məlumatları Federal Vergi Xidmətinə açıqlamaqdan imtina edən auditor şirkətləri 10 min rubl (312 manat) məbləğində cərimə olunacaqlar. Bu barədə Vergi Məcəlləsinə dəyişiklik edilməsi ilə bağlı hökumətin hazırladığı qanun layihəsinə ayrıca müddəa daxil edilmişdir.

**Ukrayna**da vergi xidməti iyulun 1-dək vergi ödəyicilərinə qərar-bildiriş və ödənilməli olan vergilərin məbləğini əks etdirən qəbz göndərəcək. Vergiləri 60 gün müddətində - avqustun sonunadək ödəmək tələb edilir. Ödəniş 1 ay gecikdirildiyi təqdirdə, hesablanmış verginin 10%-i, iki ay gecikdirildikdə isə 20%-i həcmində cərimə ödəniləcək.

**Yaponiya**nın maşın hissələri istehsal edən «Nisshinbo Holdings» şirkəti tərəfindən Meksikadakı zavodun tikintisinin təxirə salınacağı bildirilmişdir. Şirkət bu qərarını ABŞ Prezidentinin Meksikaya qarşı yürütdüyü vergi siyasəti ilə əlaqələndirmişdir.

**ABŞ**-ın Ölkədaxili Gəlirlər Xidməti vergi ödəyicilərini xəbərdar etmişdir ki, xeyriyyə təşkilatı adı altında fəaliyyət göstərən dələduz dəstələri peyda olmuşdur, onlar 2017-ci il üçün vergi bəyannaməsi verən bank əmanətçilərindən ianələr toplayırlar.

**Özbəkistan** Prezidentinin Niderlanda səfəri çərçivəsində hər iki ölkə arasında ikiqat vergitutmanın aradan qaldırılması barədə 2001-ci ildən qüvvədə olan dövlətlərarası Konvensiyaya dəyişiklik edilməsinə dair Protokolun imzalanmasına həsr olunmuş mərasim keçirilmişdir. Bununla sazişə vergi şəffaflığı ilə bağlı müvafiq beynəlxalq standartlara uyğun şərtlər daxil ediləcək.

# MacquarieGroup korporativ verginin azaldılmasından qabağa düşəcək

Avstraliyaya məxsus «MacquarieGroup»un icraçı direktoru Nikolas Mur bildirmişdir ki, rəhbərlik etdiyi şirkət Donald Trampın ABŞ-da başladığı korporativ verginin aşağı salınması tədbirlərindən əhəmiyyətli dərəcədə fayda götürməyi planlaşdırır. Onun sözlərinə görə, Amerikanın maliyyə şirkətlərinə öz gəlirlərini artırmaq üçün hələ bir neçə il zaman lazım olacaq.

«Macquarie Group» keçən ili 2,06 milyard dollar gəlirlə başa vurmuşdur. Bu maliyyə nəhənginin əməliyyatlardan əldə etdiyi gəlirlərinin 41%-i Avstraliyada, 23%-i isə ABŞ-da yaranır. Nikolas Murun sözlərinə görə, onlar indiyədək ABŞ-da heç bir vergi güzəştindən istifadə etməmişlər və korporativ vergini tam ödəmişlər. Ona görə də hökumət korporativ verginin dərəcəsini 15%-dək azaldan kimi, «Macquarie Group» bunu öz gəlirlərində hiss edəcək. Eyni faydanı indiyədək ABŞ-dakı vergi güzəştlərindən imtina etmiş digər Avstraliya şirkətləri də əldə edəcəklər.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Qiymətli kağızın, yaxud valyutanın məzənnə üzrə dəyəri ilə qarşılıqlı razılaşma əsasında vaxtından öncə ödəniş edilən dəyəri arasında fərq; 2.Rəssamın iş prosesində rəng qarışdırdığı nazik taxta parçası; 3.Əsas mövzunun dəfələrlə təkrarlanması və onların arasında müxtəlif məzmunlu epizodların növbələşməsinə əsaslanan musiqi forması; 4.Pulcuqlular dəstəsinə aid heyvan cinsi; 5.Tatarıstan Respublikasının paytaxtı; 6.Beynəlxalq abonent teleqrafının telefonlu rabitə şəbəkəsi; 9.Paytaxtımızda qəsəbə; 13.Hiss, həyəcan bildirən səs, nitq hissəsi; 15.Paleozoy erasının sonundan Kaynozoy erasının başlanğıcına qədər olan geoloji vaxt erası; 16.Azərbaycanın görkəmli heykəltəraşının adı. Cəfər Cabbarlının heykəlinin müəllifi; 17.Respublikamızın qərbində rayon; 18.Rus-Amerika yazıçısı, 2007-ci ildə ABŞ-da vəfat edib; 20.Şimal yarımkürəsində qitə; 21.Azərbaycan güləşçisinin adı. Yunan-roma güləşi üzrə 66 kq çəki dərəcəsində Olimpiya çempionu. **Soldan sağa:** 1.İspaniyanın futbol klubu; 5.Kəsməyən, iti olmayan; 7.XIX əsrin son illərində Mariya Küri və Pyer Küri tərəfindən uran və radium elementlərinin parçalanmasından alınmış kimyəvi element. Bu elementə M.Kürinin vətəni olan Polşanın şərəfinə ad verilib; 8.Ölkəmizdə fəaliyyət göstərən aviaşirkət; 10.Keçmişə uyğunluq, keçmişi təkrar yönümlü üslub; 11.Rusiyada Voya çayının sağ sahilində yerləşən şəhər; 12.Pulun real dəyəri ilə (əmtəə ekvivalenti ilə ölçülən) məzənnə dəyəri (xarici valyuta ilə müqayisədə) arasındakı mənfi fərq; 14.Yaponiyada şəhər; 19.Culfa rayonunda vulkan mənşəli andezit-dasit süxurlarından təşkil olunmuş dağ; 21.«Alma almaya bənzər» filmində Mehdi obrazını canlandıran aktyorun adı; 22.Bir sıra media mükafatları, fəxri diplomlar ilə təltif olunmuş azərbaycanlı şair və publisistin adı; 23.Osmanlı imperiyasında hökmdardan sonra ən yüksək rütbəli ikinci şəxs; 24.Rusiyada çay; 25.Görkəmli Azərbaycan aktyor və rejissoru, Azərbaycanın əməkdar incəsənət xadiminin soyadı. Ölkəmizin ilk peşəkar kino aktyorlarındandır.



*Pulcuqlular dəstəsinə aid heyvan cinsi*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Hikmət *(Nazim)*; 2.Şpandau; 3.Əlzəm; 4.Xəlifə; 5.Əcəmi *(Əbubəkr oğlu Naxçıvani)*; 6.İlhamə *(Quliyeva)*; 9.Adət; 13.Asya; 15.Roulinq *(Coan)*; 16.«Firuzə»; 17.Axirət ; 18.Maxaon; 20.Qrats; 21.Bundi. **Soldan sağa:** 1.Həştərxan *(xanlığı)*; 5.Əmi; 7.Klauzula; 8.Şərh; 10.Ərdəm; 11.Fideizm; 12.Buxar; 14.Start; 19.İlqayax; 21.Bluza; 22.Umac; 23.Franşiza; 24.Əks; 25.Qettinqen.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev *anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu *redaksiya@vergiler.az*

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

idman

# Dünya reytinq sıralamasında 16 güləşçimiz ilk onluqda yer alıb

Dünya Güləş Birliyi 2017-ci ilin yanvarında keçirilən yarışların nəticəsinə əsasən, güləş üzrə yeni reytinq siyahısını açıqlayıb. Yanvarda komandalarımız heç bir rəsmi yarışda iştirak etmədiyindən reytinq sıralamasında elə də ciddi dəyişiklik müşahidə edilməyib. İlk onluqda ümumilikdə 16 güləşçimizin adı var.

Sərbəst güləşçilərin siyahısında Hacı Əliyev, Əhmədnəbi Qvarzatilov, Toğrul Əsgərov, Cəbrayıl Həsənov və idmançı karyerasını bitirən Xetaq Qazyumovun adı ilk onluğa daxil edilib.

Qadın güləşçilərdən Mariya Stadnik, Natalya Sinişin, Yuliya Ratkeviç onluqda yer alıblar.

Yunan-Roma güləşçilərindən isə Rövşən Bayramov, Rəsul Çunayev, Həsən Əliyev, Elvin Mürsəliyev, Rafiq Hüseynov, İslam Abbasov və Sabah Şəriətinin adları ilk onluğa salınıb.




# Taekvondoçularımızdan inanılmaz nəticə

### İdmançılarımız Antalyada keçirilən klublararası Avropa çempionatında ümumilikdə 32 medal qazanıblar

Azərbaycan Taekvondo Federasiyasının yaydığı məlumata görə, 40 ölkədən 900-dən çox idmançının qatıldığı çempionatda «Rio-2016» Yay Olimpiya Oyunlarının bürünc mükafatçıları Milad Beigi Hərçəqani (80 kq, «Gilan») və Patimat Abakarova (53 kq, «Gilan») fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.




Radik İsayev (87 kq-dan yuxarı, «Gilan») və Ramin Əzizov (87 kq, «Qafqaz») isə həlledici döyüşdə məğlub olaraq gümüş medalla kifayətlənməli olublar. Daha üç idmançımız - Yaprak Eriş (57 kq, «Gilan»), Fəridə Əzizova (67 kq, «Gilan») və Ceyhun Həsənli (87 kq-dan yuxarı, «Savalan») isə yarışı bürünc medalla başa vurublar.

Dörd gün davam edən çempionatda Azərbaycanda fəaliyyət göstərən taekvondo klublarının yetirmələri ümumilikdə 32 medal qazanaraq uğurlu nəticəyə imza atıblar. Yarışın nəticələrinə görə «Gilan» idman klubu bütün yaş kateqoriyaları üzrə ümumi komanda hesabında ilk pilləyə yüksəlib və qitənin ən güclü klubu adını qazanıb.

Azərbaycanın taekvondo üzrə milli komandasının üzvləri isə Antalyada keçirilən «Turkish Open» beynəlxalq turnirində uğurla çıxış edərək, 1-i qızıl, 3-ü gümüş və 3-ü bürünc olmaqla, ümumilikdə yeddi medal qazanıblar. Yeniyetmələrdən ibarət yığmamızın idmançıları - 37 kiloqram çəki dərəcəsində mübarizə aparan Aysu Məmmədova gümüş, Pərviz İsgəndərov (45 kq) isə bürünc medala sahib olublar.

Dayanq üzərinə çıxmış taekvando üzrə gənclərdən ibarət yığmamızın üzvlərindən Ayaz Qənbərli (51 kq) bütün rəqiblərini yarışdan kənarlaşdıraraq komandamızın aktivinə qızıl medal əlavə edib. Mehriban Məmmədova (44 kq) və Orxan Tağızadə (78 kq) isə finalda məğlubiyyətlə üzləşərək gümüş medalla kifayətləniblər. Minayə Əkbərova (42) və Sevda Pirseyidova (44 kq) turnirdə bürünc medal qazanıblar.

Qeyd edək ki, «G-2» kateqoriyalı «Turkish Open» beynəlxalq turnirində yeniyetmə, gənc və böyüklərdən ibarət yığma komandamız tam heyətlə təmsil olunur.

# Türkiyə «Avro-2024»ə ev sahibliyi edə bilər

Türkiyə 2024-cü ildə təşkil olunacaq futbol üzrə Avropa çempionatına ev sahibliyi etmək üçün namizədliyini irəli sürüb. 2016-cı ilin qitə birinciliyinə də ev sahibliyi etmək üçün namizəd olmuş qardaş ölkə o zaman mübarizəni cəmi bir səslə uduzmuşdu. 2020-ci ildə qitə çempionatının bütün Avropaya yayılması səbəbindən imtina edilmişdi.

«Avro-2024»ü təşkil etmək istəyən ölkələrin adları rəsmən açıqlanmasa da, Almaniya və Hollandiyanın təklikdə, Rusiya və Estoniyanın isə birlikdə namizəd olacağı gözlənilir.

## İdmançımız Avropanın «ən yaxşısı» ola bilər




Avropa Triatlon Şurasının (ETU) Romadakı mənzil qərargahında «İlin ən yaxşı triatlonçusu»nun adı açıqlanacaq. Siyahıda Azərbaycan yığmasının üzvü Rostislav Pevtsovun da adı var. Qeyd edək ki, Dünya kuboku mərhələlərində, həmçinin Şatoruda sprint üzrə Avropa çempionatında medallar qazanan idmançımız «Rio-2016» Yay Olimpiya Oyunlarına lisenziya əldə edərək, həmin yarışlarda debüt etmişdi.

Xatırladaq ki, R.Pevtsov ötən il Avropada ən yüksək reytinqə malik triatlonçu adına layiq görülmüşdü.

mozaika

texnologiya

# İşığın köməyi ilə çap texnologiyası

Beynəlxalq tədqiqatçılar qrupu tərəfindən hazırlanmış ultrabənövşəyi lampanın köməyi ilə işıq çapı texnologiyası mətni eyni səth üzərində 80 dəfəyə kimi yazmağa və silməyə imkan verir. Yeni texnologiyanın sirri xarici təsir nəticəsində rəngini dəyişən nanozərrəciklərdən ibarət nazik örtükdədir.




Şandun Universitetinin alimləri Kaliforniya Universiteti və Lourens Berkli Milli Laboratoriyasından olan həmkarları ilə birgə bu texnologiyanı «işıq çapı kağızı» adlandırıblar. Çap prosesində adətən «rəngsiz fonda göy rəng» yaradılır, çünki bu halda yazı daha yaxşı oxunur, hərçənd əksinə də mümkündür.

Çap edildikdən sonra yüksək ölçüyə malik təsvir sənəd üzərində beş gün qalır. Bundan sonra yavaş-yavaş yoxa çıxır və sənədin fonu göy rəngə çalır. Mətni tez silmək üçün kağızı 10 dəqiqə ərzində 120 Selsi dərəcəyədək qızdırmaq lazımdır.

Yeni texnologiya təbii resurslara qənaət etməyə imkan verəcək.

kəşf

# Tranzistor istilik enerjisi ilə işləyir

İsveçin Linçopinq Universitetinin alimi Ksavye Krispinin rəhbərlik etdiyi fiziklər qrupu istilik enerjisi ilə işləyən ilk tranzistor yaradıb. Yeni cihazda informasiya daşıyıcısı funksiyasını elektrik siqnalı deyil, istilik axınları yerinə yetirir.



K.Krispin bildirib ki, ötən il onun komandası tərəfindən son dərəcə maraqlı termoelektrik xüsusiyyətlərə malik qeyri-adi üzvi polimer kəşf edilib. Polimerin mənfi enerji ilə yüklənmiş zəncirləri temperatur dəyişikliyinə çox zəif reaksiya verir. Nəticədə onun şaxtaya və istiliyə güclü reaksiya verən, müsbət ionlarla doldurulmuş qarışığı termokondensatora çevrilir.

Alimlər bu maddələr kombinasiyasını kəşf etməklə onun informasiya daşıyıcısı qismində istilikdən istifadə edən daha mürəkkəb qurğuların yaradılmasında tətbiqi məsələsini öyrəniblər. Hibrid elektron-istilik tranzistorunun yaradılması bu səylərin nəticəsi olub.

Diqqətə çatdırılıb ki, alimlər tərəfindən hazırlanmış polimer istiliyə qarşı çox həssasdır. Bu isə istiliyə əsaslanan tranzistorların tibbi cihazlar, infraqırmızı kameralar üçün «ağıllı piksellər» qismində tətbiqinə imkan verir.

ekologiya

# Proqnozların özünü doğrultması 92-96 faizdir

Xüsusən qış aylarında ən çox müraciət etdiyimiz informasiya mənbələrindən biri hava proqnozlarıdır. Azərbaycanda proqnozları Milli Hidrometeorologiya Departamentinin (MHD) operativ bölməsi olan Hidrometeoroloji Proqnozlar Bürosu (HPB) hazırlayır. Büroda respublikanın 7 bölgəsi və Bakı şəhəri üçün verilən qısamüddətli (sutkalıq) və ortamüddətli (48, 72 saat), aylıq proqnozlar, Xəzər dənizinin 6 akvatoriyası üzrə tərtib olunan qısamüddətli (yarımsutkalıq, sutkalıq) və ortamüddətli dəniz hidrometeoroloji proqnozlar tərtib edilir. Hava şəraitində kəskin dəyişiklik, Xəzər dənizində təhlükəli və ifrat təhlükəli hidrometeoroloji hadisələr gözlənilirsə əvvəlcədən hazırlanıb müvafiq orqan və təşkilatlara vaxtlıvaxtında məlumat çatdırılır.

Hidrometeoroloji Proqnozlar Bürosunun direktor əvəzi Gülşad Məmmədova AZƏRTAC-a müsahibəsində bildirib ki, proqnozların tərtibatı çox çətin prosesdir. Proqnoz və xəbərdarlıqların keyfiyyətinin artırılması məqsədilə yüksək texnologiyalardan istifadə olunur. Fransanın «Karabor» şirkəti ilə bağlanmış müqavilə çərçivəsində 70-ə yaxın avtomat stansiya alınıb. Bu stansiyalara məlumatlar internet vasitəsilə birbaşa e-maillə daxil olur və bazada arxivləşdirilir. Daha bir sistem isə 2004-cü ildən tətbiq olunan «TURKMETCAP»dır. «TURKMETCAP» sinoptik vizuallaşdırma və təhlil sistemidir. 2010-2012-ci ildə yeni versiyası «TURKMETCAP+» tətbiq edilməyə başlanılıb. Proqnozların hazırlanmasında faktiki məlumatlarla yanaşı, çoxsaylı proqnostik xəritələr, rəqəmli modellərin nəticələri bu sistem vasitəsilə əldə olunur və informasiya mübadiləsi həyata keçirilir.

Proqnozlar, həmçinin Türkiyənin VSAT-Peyk Məlumat Mübadiləsi Sistemi, Rusiyanın Roshidrometin UniMASS-Məlumatların Kommutasiya Mərkəzinin məlumatları əsasında tərtib olunur. Almaniyanın EUMETSAT peyk sistemi 12 spektr üzrə bulud sistemlərinin vizuallaşmasını təmin edir.

Hava Proqnozları bürosunda hər 15 dəqiqədən bir məlumatlar yenilənir. Proqnozların özünü doğrultması isə 92-96 faiz təşkil edir







ELAN

«Vergilər» qəzetinə
2017-ci il üçün
abunə kampaniyası davam edir

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.

Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


maraqlı

# Şaquli meşələr

Havanın çirklənməsinin çox yüksək səviyyədə olduğu Çin bu vəziyyətə qarşı maraqlı bir layihəni həyata keçirməyə hazırlaşır. Belə ki, Çində havanın çirklənməsinə qarşı mübarizə məqsədilə böyük həcmdə oksigen ifraz edən meşəyə bənzəyən, hündür qüllələr inşa olunacaq.

Çinin Nanjing şəhərində inşası planlaşdırılan, «Nanjing qüllələri» adlanan iki yüz və yüz metrlik iki qüllənin inşasında 23 növdə 2500 koldan və 1100 ağacdan istifadə ediləcək.

«Nanjing qüllələri» dünyada üçüncü, Asiyada isə ilk şaquli meşə olaraq tarixə düşəcək. Belə ki, oxşar qüllələr bundan əvvəl İtalyanın Milan, İsveçrənin isə Lozanna şəhərində tikilib.

## Müdriklər deyib ki...



*«Harada olursunuz olun, əlinizdəki imkanlarla edə biləcəklərinizi edin».*

*Teodor Ruzvelt (1858-1919)*